# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Təşəkkürlər, Azərbaycan!"


DND
HOME ELECTIONS 2024 NEWS ENTERTAINMENT POLITICS DND THOUGHT CENTER ECONOMIC PERFORM
CONTACT US ABOUT US PRIVACY POLICY
Operation Bunyan-un-Marsoos: Thank you Azerbaijan
By Hina Haroon

4

№ 082 (7250)

SƏS

14 may 2025-ci il.
Qiyməti 60 qəpik

## "Bu məsələdə Türkiyə Prezidentinin siyasi iradəsi ən başlıca rol oynayıb"



4

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin milli müdafiə nazirini qəbul edib

# Münaqişənin həllinə mane olan MƏNASIZ TƏHDİDLƏR



7

### Müharibə əlilləri və şəhid ailələrinin mənzillə təminatı müddəti uzadılıb



10

### XƏBƏRDARLIQ: Əmək bazarında bu peşələr 5 ildən sonra sıradan çıxa bilər!



16

### Zəngin irsimizin nümunələri İrəvan torpağında



5

### Harada siqaret çəkmək olmaz?



15

### Əsir düşərgəsi



13

# Prezident İlham Əliyev ”InterFood Azerbaijan” və ”Caspian Agro” sərgiləri ilə tanış olub

***Mayın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində XXX Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi - ”InterFood Azerbaijan” və XVIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - ”Caspian Agro” sərgiləri ilə tanış olub. AZƏRTAC xəbər verir ki, artıq milli brendə çevrilmiş ”InterFood Azerbaijan” və ”Caspian Agro” sərgiləri kənd təsərrüfatı və qida sənayesi sahələrində Xəzər regionunun ən böyük sərgiləridir. Bakı Ekspo Mərkəzinin bütün pavilyonlarını, həmçinin açıq sahəsini əhatə edən və mayın 16-da başa çatacaq ”InterFood Azerbaijan” və ”Caspian Agro” sərgilərində 31 ölkədən 450 şirkət iştirak edir. İştirakçı və ziyarətçilərin istəkləri nəzərə alınaraq, bu il sərgilər 4 gün davam edəcək.***

Sərgilərin coğrafiyası dünyanın bir çox yerini əhatə etməklə, olduqca genişdir. Burada ABŞ, Çin, Qazaxıstan, Özbəkistan, Rusiya, Türkiyə və digər ölkələrin aparıcı kənd təsərrüfatı istehsalçıları məhsullarını nümayiş etdirirlər. Qeyd edək ki, Almaniya, Belarus, Cənubi Koreya, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, eləcə də ilk dəfə olaraq Misir sərgilərdə milli qruplar şəklində təmsil olunur.

Dövlətimizin başçısı İtaliyanın stendi ilə tanış oldu. ”İtaliya Respublikasının Milli Qrupu”nda ümumilikdə 7 şirkət təmsil olunur. Onlar müxtəlif kənd təsərrüfatı məhsullarını təqdim edirlər. İtaliya bu sərgilərə böyük maraq göstərən ölkələrdəndir. Odur ki, bu ölkə 10 ildən çoxdur ki, sərgilərdə iştirak edir.

Bu il ”InterFood Azerbaijan” sərgisi öz 30 illik yubileyini qeyd edir. Ötən illər ərzində 50-dək ölkədən 3 mindən çox şirkət və 150 mindən artıq ziyarətçini qəbul edən sərgi səmərəli biznes platforması statusunu qazanıb. Burada təqdim olunan yeni texnologiyalar və innovativ həllər qida sənayesi sahəsinin inkişafına və biznes əlaqələrinin genişləndirilməsinə əlverişli imkanlar yaradır. Eyni zamanda, sərgi ərzaq təhlükəsizliyinin əsas aspektlərini əhatə edərək, onun gücləndirilməsinə də töhfə verir.












Almaniya da sərgidə mütamadi olaraq iştirak edir. ”Almaniya Milli Qrupu”nda kənd təsərrüfatı məhsullarını təqdim edən 8 şirkət təmsil olunur. Bu şirkətlər yalnız Almaniyada deyil, kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində dünyanın tanınmış şirkətləridir. Qeyd edək ki, Almaniya 5 ildir ki, sərgilərə qatılır.

Sərgilər Kənd Təsərrüfatı Nazirliyinin təşkilati dəstəyi ilə keçirilir. Eyni zamanda, sərgilərə Qida Təhlükəsizliyi Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi, Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Qida və İçki Sənayeçiləri Assosiasiyası, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası fəal şəkildə dəstək verir.

Cənubi Koreyanın stendində 3 şirkət təmsil olunur. Onlar kənd təsərrüfatı məhsulları sahəsində tanınmış şirkətlərdir. Bu şirkətlər meyvəsoyma və emal avadanlıqları, meyvə-bağçılıq materialları üzrə ixtisaslaşıblar. Eyni zamanda, şirkətlərin biri süni intellektə əsaslanan sistemlə ağıllı heyvandarlıq monitorinqi və idarəetməsi sahəsində xidmətlərini təklif edir. Cənubi Koreya artıq ikinci ildir ki, sərgidə iştirak edir.

Kənd Təsərrüfatı Nazirliyi bu il də sərgilərdə stendlə iştirak edir. 2025-ci ildə nazirliyin iştirakının əsas mövzusu süni intellektin kənd təsərrüfatında tətbiqi ilə bağlıdır. Belə ki, dövlətimizin başçısının tapşırığına uyğun olaraq süni intellektin kənd təsərrüfatında tətbiqi prioritet kimi müəyyən olunub. Sərgilər çərçivəsində Nazirlik süni intellektin tətbiqi ilə bağlı bir neçə layihəni iştirakçılara təqdim edəcək.

***Ardı Səh. 3***

# Prezident İlham Əliyev ”InterFood Azerbaijan” və ”Caspian Agro” sərgiləri ilə tanış olub

Əvvəli Səh. 2

Hazırda gündəmdə olan əsas məsələlərdən biri Azərbaycan universitetlərində süni intellekt istiqamətində təhsil alan tələbələr və bazarda olan böyük aqroparklar arasında sinerjinin yaradılmasıdır.

Prezident İlham Əliyev Gürcüstanın stendi ilə də tanış oldu. ”Gürcüstan Milli Qrupu”nda 8 şirkət var. Onlar əsasən qida məhsullarını təqdim edirlər. Gürcüstan da bu sərgilərə böyük maraq göstərir. İndiyədək bu ölkə 10 dəfə sərgilərdə təmsil olunub.

”Caspian Agro” kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma sistemi, qablaşdırma, kənd təsərrüfatında innovasiya texnologiyaları, heyvandarlıq və quşçuluq, baytarlıq, bitkiçilik, meyvə və tərəvəzlərin yetişdirilməsi, gülçülük, tullantıların emalı, logistika, elektron kənd təsərrüfatı kimi sahələri əhatə edir. Buraya kənd təsərrüfatı sənayesinin aparıcı iştirakçıları, yerli və xarici ekspertləri, o cümlədən idxalçılar, ixracatçılar, məhsulların distribütorları, topdan və pərakəndə ticarət nümayəndələri, həmçinin fermerlər də daxil olmaqla minlərlə peşəkar toplaşır. Ekspozisiyada ”Smart Agro” istiqaməti üzrə süni intellekt, ağıllı kənd, startaplar, İT xidmətləri, robototexnika, pilotsuz uçuş aparatları və ”green agro” bölmələri də yer alır.








Sərgilər ”Made in Azerbaijan” brendinin təşviqi üçün əlverişli platforma rolunu oynayır. Ötən il olduğu kimi, bu il də ”Caspian Agro” və ”InterFood Azerbaijan” sərgiləri çərçivəsində iştirakçılar bu brend altında məhsullarını nümayiş etdirirlər.

Uzun illərdir ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi sərgiləri fəal şəkildə dəstəkləyir, kiçik və orta sahibkarların tədbirlərdə iştirakı üçün stend təşkil edir. Şirkətlər bazarın yenilikləri ilə tanış olur, sahənin aparıcı liderləri ilə əlaqələr quraraq, inkişaf edir.

Belarus da sərgilərə böyük maraq göstərən ölkələrdəndir. Milli stenddə qida məhsulları istehsal edən 15 şirkət təmsil olunur. Onlar pendir, ətin qablaşdırması və emalı, süd sənayesi kimi sahələrdə ixtisaslaşmış şirkətlərdir. Bundan başqa Belarusun kənd təsərrüfatı texnikası da sərgidə geniş təmsil olunur. Qeyd edək ki, 10 ildən çoxdur bu ölkə sərgilərdə iştirak edir.

Prezident İlham Əliyev sərgilərin açıq hissəsində nümayiş etdirilən texnika və pavilyonlarla tanış oldu. Azərbaycanın kənd təsərrüfatı və qida sənayesinin inkişafına dəstək verərək, ölkənin ixrac potensialının artırılması, xarici investisiyaların cəlb edilməsinə imkan yaradır, eyni zamanda, qida təhlükəsizliyi və innovativ həllərin tətbiqi üçün əlverişli platforma rolunu oynayır. Sərgilərin miqyasını və sərgi çərçivəsində keçirilən tədbirlərin zəngin proqramını nəzərə alaraq, ”Caspian Agro” və ”InterFood Azerbaijan” 2026-cı ildən etibarən yeni ”AgriWeek” brendi altında keçiriləcək.

# “Ölkələrimiz arasında qardaşlıq və müttəfiqlik əlaqələri dərinləşir”




**Prezident İlham Əliyev mayın 13-də Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi Okay Məmişi qəbul edib. Dövlətimizin başçısı Okay Məmişin Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi təyin olunmasından sonra ilk səfərini ölkəmizə etməsinin əhəmiyyətinə toxundu və bu səfərin uğurlu olacağına ümidvarlığını bildirdi.**

Okay Məmiş də öz növbəsində bu vəzifəyə təyin olunmasından sonra ilk səfərini qardaş Azərbaycana etməsindən məmnunluğunu diqqətə çatdırdı.

Söhbət zamanı ölkələrimiz arasında bütün sahələrdə qardaşlıq və müttəfiqlik əlaqələrinin dərinləşməsindən məmnunluq ifadə olundu. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında səmimi münasibətlərin əməkdaşlığımızın daha da genişlənməsi işinə böyük töhfə verdiyi vurğulandı. Görüşdə ölkələrimizin bütün istiqamətlər üzrə, o cümlədən təhlükəsizliklə bağlı məsələlərdə uğurlu qarşılıqlı fəaliyyəti qeyd edildi.



# "Bu məsələdə Türkiyə Prezidentinin siyasi iradəsi ən başlıca rol oynayıb"

## Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin milli müdafiə nazirini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev PKK terror qruplaşmasının özünü ləğv etməsi ilə bağlı təbriklərini çatdıraraq, bununla əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etdiyini vurğuladı. PKK terror qruplaşmasının özünü ləğv etməsini tarixi hadisə adlandıran və bizi də sevindirdiyini deyən Azərbaycan Prezidenti bu məsələdə Türkiyə Prezidentinin siyasi iradəsinin ən başlıca rol oynadığını qeyd etdi. Bununla yanaşı, dövlətimizin başçısı vurğuladı ki, Türkiyə dövlətinin gücü, qardaş ölkənin silahlı qüvvələrinin terrorçularla peşəkarcasına mübarizə aparması, Türkiyə cəmiyyətindəki birlik də terror qruplaşmasının bu addımı atmasında əsas amillərdəndir. Dövlətimizin başçısı dedi ki, bu, yalnız Türkiyə üçün deyil, ümumilikdə, bölgədəki xalqların sülh və əmin-amanlıq şəraitində yaşaması üçün önəmli məsələdir.

Təbriklərə görə minnətdarlığını bildirən Yaşar Gülər ilk növbədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Qonaq bir neçə il əvvəl Azərbaycan Prezidentinin güclü iradəsi ilə bölgədə erməni terrorçularına tarixi dərs verildiyini xatırladaraq qeyd etdi ki, Türkiyə terrorla 41 illik mübarizəni zəfərlə bitirdi. Yaşar Gülər bundan sonra Türkiyədə sülh olacağına əminliyini bildirdi və bu hadisənin bölgə üçün əhəmiyyətinə toxundu.

Türkiyənin milli müdafiə naziri qardaş Azərbaycanın Silahlı Qüvvələri ilə əlaqələri genişləndirmək üçün gələcəkdə də əllərindən gələni edəcəklərini dedi. Söhbət zamanı Azərbaycan və Türkiyə Silahlı qüvvələri arasında qurulmuş səmərəli əməkdaşlığa toxunuldu, bu xüsusda birgə hərbi təlimlərin uğurla keçirildiyi vurğulandı.

Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirildi, əlaqələrimizin daha da gücləndirilməsində iki ölkənin dövlət başçıları arasında sıx münasibətlərin rolu vurğulandı. Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# "Təşəkkürlər, Azərbaycan!"

## Pakistanın DND xəbər agentliyində Azərbaycan-Pakistan əlaqələrindən bəhs edən məqalə dərc olunub

***Pakistanın DND xəbər agentliyində Azərbaycan-Pakistan əlaqələrindən bəhs edən məqalə dərc olunub. Yazının müəllifi Hina Haroon iki ölkə xalqlarının bir-birinə çətin zamanlarda göstərdiyi dəstəyini yüksək qiymətləndirib. AZƏRTAC məqaləni təqdim edir.***




İlk dəfə Bakıya gələndə Lahor və Bakı əhalisinin oxşar olduğunu hiss elədim. Onların bizə olan sevgisini və hörmətini hər yerdə görmək mümkün idi. Bakıda yerləşən Multanı karvansarasında içilən bir fincan çay daimi tarixi bağları təmsil edir və hər bir azərbaycanlının Pakistanı qardaş ölkə kimi hiss edərək böyük sevgi göstərdiyini ifadə edir.

Azərbaycan Pakistanda zəlzələ də olsa, sel də olsa hər zaman onun yanında olan bir ölkədir. Bu münasibətlər Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm təməllərə dayanır və hazırda Azərbaycanın Prezidenti İlham Əliyev bu əlaqələri uğurla davam etdirir. Rəsmi sənədlər göstərir ki, Ulu Öndər Heydər Əliyevin 1996-cı ilin aprel ayında Pakistana səfəri tarixdə dönüş nöqtəsi yaradıb. Pakistan Ermənistanın azərbaycanlılara qarşı təcavüzünü hər zaman qınayıb və hər bir azərbaycanlının şərəfini üstün tutaraq Ermənistanı heç vaxt müstəqil dövlət kimi tanımayıb.

Belə bir deyim var ki, müharibələr kimin dost, kimin düşmən olduğunu göstərir. Ötən günlərdə qonşu Hindistan Pakistanın yerli raketlər və döyüş təyyarələri istehsalçısı olduğunu unudaraq Pəncab əyalətinə raketlərlə hücum etdi. Pakistan 11 saatlıq "Bunyan-un-Marsoos əməliyyatı" ilə əks-hücuma keçərək Hindistanın "Sindoor əməliyyatı"nı məhv etdi. 11 saatlıq döyüş bölgəsində baş verənlər təkcə bu məqalədə yer alacaq sətirlər qədər deyil, çünki mən müdafiə analitiki deyiləm. Bu yazıda sadəcə olaraq Azərbaycanın istər Kəşmir münaqişəsi olsun, istərsə də Pakistana qarşı Hindistan təcavüzü olsun, həmişə ölkəmizə göstərdiyi güclü, daimi və sonsuz dəstəyi qələmə alaraq qardaş ölkəyə təşəkkür edirəm.

Azərbaycan hökuməti İslamabaddakı səfirliyi vasitəsilə mayın 9-da Hindistanın təcavüzünə qarşı Pakistanı tam dəstəklədiyini bəyan edərək bu çətin dövrlərdə Pakistanın yanında olduğunu bildirdi. İslamabad Azərbaycandan yüksək və açıq dəstək alarkən, iki ölkə arasında dəniz əməkdaşlığını gücləndirmək məqsədi ilə Türkiyə dəniz qüvvələrinə məxsus TCG Büyükada gəmisi Pakistanın Kəraçi şəhərinə səfər edib. Bütün bu hadisələr Azərbaycan-Pakistan-Türkiyə üçbucağının sülhü və üçtərəfli diplomatiyanı qoruduğunu bir daha sübut etdi. Üç ölkə müntəzəm olaraq birgə hərbi təlimlər keçirir, planları bölüşür və ehtiyac duyulan anda hər zaman bir-birinə dəstək olur.

Pakistanın bir neçə ölkə ilə hərbi əlaqələri var, lakin onlar Kəşmir məsələsində Pakistanla diplomatik arenada hər çətin anda çiyin-çiyinə dayanan Azərbaycan və Türkiyə kimi onun yanındadırmı? Cavab sadəcə olaraq "xeyr"dir. Bəs onları diplomatik sferada vahid bir qurum kimi dəyişdirən münasibətlərində unikal nədir? Burada diqqətimi Azərbaycana və Pakistana yönəldirəm, çünki onların ikitərəfli əlaqələri mənim diqqət mərkəzimdədir. Bir sıra analitiklər hesab edir ki, Azərbaycanın Kəşmir məsələsində Pakistana həmişə dəstək verməsinin səbəbi Pakistanın BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı bir neçə qətnaməsinin həmmüəllifi olmasına görədir. Lakin Azərbaycan 44 günlük Vətən müharibəsində qələbədən qazandıqdan və Qarabağı azad etdikdən sonra da Pakistanın işini dəstəkləməyə davam edir. Anladığıma və azərbaycanlılarla görüşərkən yaşadıqlarıma görə, əminəm ki, burada bir-birinə qarşı sevgi və hörmətə əsaslanan güclü əlaqə var. Azərbaycan və Pakistan doğmadır, çünki hər iki xalq pozitivliyə və məhsuldarlığa inanır. Hər hansısa bir gizli və mənfi niyyətləri yoxdur. Hər ikisi təhlükəsiz, suveren, firavan gələcək istəyir və onlar bir-birinə dəstəkdir.

Mən Bakıda azərbaycanlı dostlarımla görüşmək üçün növbəti fürsəti gözləyirəm və onlara deyirəm: Təşəkkür edirəm, Azərbaycan!



# Ərdoğan NATO-ya xəbərdarlıq edib...

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan NATO-nun Baş katibi Mark Rutte ilə danışıqlar zamanı bildirib ki, alyans Ukrayna münaqişəsinin tərkib hissəsi olmamalıdır. SİA xarici qaynaqlara istinadən xəbər verir ki, bu barədə Türkiyə liderinin ofisi məlumat yayıb. "Türkiyə hərtərəfli atəşkəsin yaradılmasını qətiyyətlə dəstəkləyir və NATO-nun bu müharibənin bir hissəsi olmamalı olduğu mövqeyindədir", - deyə bəyanatda bildirilir. Ərdoğanın ofisindən verilən açıqlamada Türkiyənin Ukrayna ilə Rusiya arasındakı müharibəni qalıcı və ədalətli sülhlə bitirmək üçün səylərini artırdığı da vurğulanıb. Bundan əvvəl Türkiyə prezidenti mayın 11-də rusiyalı həmkarı Vladimir Putinlə, mayın 12-də isə Ukrayna lideri Vladimir Zelenski ilə danışdığını bildirib. Ərdoğan Putinlə Ukrayna ilə bağlı danışıqlarının hərtərəfli olduğunu deyib.

*Əli Babayev*

# Zəngin irsimizin nümunələri İrəvan torpağında



Müasir dünyamız siyasi, iqtisadi, mədəni qloballaşma, eləcə də inteqrasiya prosesləri ilə səciyyələndiyindən xalqların etnomədəni hüquqlarının, milli - mədəni özünəməxsusluğunun, tarixi köklərinin qorunub saxlanılması vacib məqamlardan biridir. Milli-mənəvi dəyərlər, tarixi abidələr xalqın tarixi keçmişi ilə bağlı mövcud olan zənginliyi özündə ehtiva edir. Müasir dövrdə dünyamıza naxış salan, onun rəngarənliyinə əlvanlıq gətirən də elə milli mədəni dəyərlər sistemində formalaşmış olan irsimiz zəngin sərvətə çevrilib. Bu gün xalqımızın tarixi varlığını sübut edən mədəni-dini abidələrimizin hər biri Azərbaycan vətəndaşının qururla söz açdığı və hər kəsə ucalıq gətirən mənəvi xəzinədir. Nəsildən-nəslə ötürülən maddi və mənəvi irsimizin tariximiz qədər yaşı var. Bu diyarda, bu məmləkətdə yaradılan abidələr zamanla üz-üzə qalmış xalqın mənşəyindən tutmuş tarixinə qədər olan bir fondun əsasını təşkil edir. Azərbaycanın hər bölgəsində tariximizin silinməz izləri, naxışları ilə tanış oluruq. Keçmişimizdən bu günümüzə gələn yolun şahididirlər onlar. Nə qədər tarixi yaddaşlarında əsrlərin sirri, söhbəti vardır. Nələrə şahidlik etməyib bu susqun baxışlar, lal daşlar.

Əhalisi soyqırımı və deportasiyalara məruz qalmış tarixi Azərbaycan ərazilərindən biri olan İrəvan torpağı da zəngin irsi ilə də dünyaya qapı açıb. Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində doğulub boya-başa çatan yüzlərlə elm, mədəniyyət, incəsənət, din xadimləri, sənətkarlar, memarlar bir tarix yaratmışdılar. Vaxtilə İrəvanda olmuş səyyahlar, salnaməçilər, tədqiqatçılar İrəvan şəhərini Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi kimi təsvir etmişlər.

İrəvan ziyalılarının, elm, mədəniyyət və din alimlərinin yaratdıqları əsərlər bu gün dünyanın müxtəlif kitabxanalarında, arxivlərində və muzeylərində saxlanılır. Görkəmli Azərbaycan ədəbiyyatşünas və maarif xadimi Firudin bəy Köçərli İrəvanı haqlı olaraq "mərkəzi-üləma, füzəla və şüəra" şəhəri - yəni üləmalar, fazillər və şairlər şəhəri adlandırmışdı. Belə bir məkanın torpağında ucaldılan abidələrin hər birinin yaşı əsrlərin sorağını ifadə edir. Buraya gələn səyyahlar bu abidələrə laqeyd qalmayıblar. Burada mövcud olan qəbirsanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. İrəvan tarixinin göstəricisidir. Böyük bir irsin nümunələri bu yerlərdədir. 1918-ci ildə Cənubi Qafqazda ilk erməni dövləti yarandıqdan sonra İrəvan şəhəri Ermənistanın paytaxtına çevrildi. Tarixə dönüb nəzər salsaq görərik ki, İrəvan şəhərində ermənilərə məxsus yaşı 200 ildən artıq bir dənə də olsun tarixi-memarlıq abidəsi mövcud deyil. Çünki İrəvan şəhərində ermənilər XIX əsrin əvvəllərində Rusiyanın İrəvan xanlığını işğalından sonra tədricən İran və Türkiyədən köçüb gətirilərək məskunlaşdırılmışlar. İrəvandakı tarixi-memarlıq abidələri Şərq memarlığı üslubunda inşa edilmişdi.

## HƏR ABİDƏ BİR TARİX DANIŞIR

Azərbaycanın tarixinə görə ən qədim bölgələrdən olan qədim İrəvanda mövcud olan qəbiristanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. bu məkanın tarixinin göstəricisi olmaqla yanaşı, insanların sənətə, milli dəyərlərinə bağlılığın əks etdirir. Hər abidə bir tarix danışır. Böyük bir irsin nümunələri bu yerlərdədir. İrəvanın əsl müsəlman şəhəri kimi təqdimi də təsadüfi deyildi. Amma təəssüf doğuran məqam budur ki, Ermənistan ərazisində məhv edilən Azərbaycan abidələrinin sayı-hesabı yoxdur. Zəngəzurdan İrəvana qədər dağıdılmış tarixi abidələr erməni vandallığının bariz nümunəsidir. Yaxın tarixi keçmişimizdə - 1988-ci ildə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmağa başladılar. Kütləvi terrora məruz qalan azərbaycanlılar məcburiyyət qarşısında qalıb öz dədə-baba yurdlarını tərk etdilər. Bu ərazilərdə onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi. Ulu Öndər Heydər Əliyev deyirdi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

İrəvan şəhərindəki mədən-dini abidələr haqqında məlumatları yazılı mənbələrdən də əxz edirik. Tarixi mənbələrə nəzər salsaq görərik ki, 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 382 şiə məscidi, 9 sünni məscidi fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyinə əsaslanır. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib.

## TÜRK TARİXİ-MEMARLIQ ABİDƏLƏRİ KOMPLEKSİ - URUD QALASI

Ermənilər bütün dövrlərdə mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikiblər, onları oğurlayıb özününküləşdirməyə çalışıblar. Ermənilər Azərbaycan xalqının tarix və mədəniyyətinə dair fakt və həqiqətləri saxtalaşdırmaqla bərabər, abidələrin görünüşünü və yazılarını da süni şəkildə "erməniləşdirmişlər". Məkrli niyyət və mənfur siyasət sahibi olan ermənilərin azərbaycanlılara qarşı törətdikləri vandalizm hərəkətləri hər zaman pislənib. Tarix ədaləti bərpa edir. Hər zaman belə olub, bu gün də belə olacaq.

Zəngəzur mahalının Qarakilsə rayonunun Urud kəndi ərazisində yerləşən qədim Azərbaycan - türk tarixi-memarlıq abidələri kompleksi olan Urud qalası tarixi türk qalasıdır. Xatırladaq ki, 1968-ci ildə ermənilər Urud kəndinin adını dəyişərək Vorotan, Urud qalasının adını isə Vorotanberd qoymuşlar. Urud kəndində 1988-ci ilə kimi yalnız Azərbaycan türkləri yaşamışlar. Bu kənddə ermənilərin ilk məskunlaşması 1988-ci ildən sonra olmuşdur. Abidələr kompleksinin ən mühüm hissəsi isə Urud kəndi yaxınlığındakı orta əsrlər Azərbaycan məzarlığını da qeyd etməliyik. Məzarlıqda bədii tərtibatlı məzar daşları, qəbirüstü sənduqələr və qoç heykəlləri olmuş, 13 sənduqə, 4 qoç heykəlli məzar daş qeydə alınmışdı. Məzarlıq ermənilər tərəfindən dağıdılıb, Urud qalasının yalnız xarabalıqları qalır.

Qeyd edək ki, İrəvanda salamat qalmış iki məscid - Hacı İmamverdi məscidi və Göy məscidinin tarixi saxtalaşdırılıb və xarabalığa çevrilənə qədər baxımsız qalıb. 1880-ci ildə İrəvanda səfərdə olan arxeoloq Uvarov məşhur Göy məscidinin uzaqdan cəlb edən günbəzinə və bir cüt uca minarəsinə heyranlıqla yazırdı: "Məscidin üstündən boylanan çətir sanki müsəlman aləmində tutduğu mövqeyinin nə qədər mühüm olduğunu bütün dünyaya sübut etmək istəyir".

## YAZILI MƏNBƏLƏR HƏQİQƏTİN AÇARIDIR

Əlbəttə ki, ermənilər tarix boyu Azərbaycanın mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışıblar. Bu onların əqli mülkiyyətimizin terrorçusu olduğunun göstəricisidir. Ermənistan ərazisində məhv edilən Azərbaycan abidələri - Zəngəzurdan İrəvana qədər dağıdılmış tarixi abidələr erməni vandallığınının bariz nümunəsi deyilmi? Ermənilər Azərbaycanın İslam memarlığının İrəvandakı İrəvan qalası, Sərdar sarayı, Şah Abbas məscidi, Abbas Mirzə məscidi, Rəcəb Paşa məscidi və digər abidələrimizi məhv etməklə bu torpaqlardan silməyə çalışsalar da, tarixi faktlar, arxiv aterialları, yazılı mənbələr həqiqətin açarıdırlar. Ermənistanda Azərbaycan xalqının irsinin dağıdılması və tarixi izlərin silinməsi məqsədi ilə təcavüzkar siyasət məqsədyönlü şəkildə davam etdirilir. İrəvandakı İslam memarlığının sonuncu izi olan - Təpəbaşı məhəlləsi şəhərsalma quruluşuna və memarlıq irsinə görə nadir nümunədir. Təpəbaşı məhəlləsinin son qalıqlarının da söküləbək, məhəllənin tamamilə məhv edilməsi təhlükəsi barədə məlumatları hər kəs xatırlayır. Təpəbaşı məhəlləsi qədim İrəvanda azərbaycanlıların yaşadığına və onlara aid olduğuna dair əsaslı sübutdur. Təpəbaşı qədim İrəvan şəhərinin tarixi məhəllələrindən biri olub, İrəvan şəhərinin də tarixi nüvəsini təşkil edir. Ermənilər tərəfindən aparılan, 100 ildən çox davam edən və sistemli xarakter daşıyan söküntü proseslərinə baxmayaraq, onun son qalıqları günümüzə qədər gəlib çıxıb. Təpəbaşı məhəlləsində İrəvan xanı Hüseynqulu xana məxsus Xan bağı da yerləşmişdir. Bütün bu cəhdlərə baxmayaraq, Ermənistan və Azərbaycan arxivlərində Təpəbaşının azərbaycanlı köklərini təsdiqləyən əsaslı sübutlar var. Abidələrlə zəngin, görkəmli azərbaycanlıların yaşadığı bu məhəllə danışan tarixdir.

İrəvan şəhəri karvan yollarının kəsişdiyi məkanda yerləşdiyi üçün burada çoxlu karvansaralar və ticarət meydanları salınmışdı. Daşdan hörülmüş, ortasında kvadratşəkilli meydançaları, su hovuzları olan karvansaralar İrəvanın gözəl tikililərindən hesab olunurdu. Mənbələrdə göstərilir ki, XIX əsrin əvvəllərində İrəvanda 8 karvansara mövcud olmuşdur. Culfa, Zərrabi xan, Tahir, Sulu və s. karvansaralarında üst-üstə 851 köşk mövcud olmuşdur. İrəvanda Şərq memarlıq üslubunda 8 hamam - Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim, Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy hamamları, eləcə də XIX əsrin sonları, XX əsri əvvəllərində İrəvan şəhərində adları azərbaycanca səslənən onlarla küçə mövcud idi. Qədim İrəvanda bu küçələr məşhur idi: Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan, Qəriblər ocağı, Dəyirmanlı, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Qəbiristan, Naib, Mir Cəfər, Rüstəm xan, İmamrə, Korbulaq, Bəy, Kətan, Dükanlı, Sallaxlar və s. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra məscidlər bir-birinin ardınca dağıdılmışdır. Göy məsciddə İrəvan şəhərinin tarix muzeyi yerləşdirilmiş, Zal xan məscidi rəssamların sərgi salonuna çevrilmişdi. 1924-cü ildə İrəvanın baş planı hazırlanaraq həyata keçirilməyə başlandıqdan sonra şəhərdə mövcud olan azərbaycanlılara məxsus tarixi-memarlıq baxımından əhəmiyyət kəsb edən bütün abidələrini bir-birinin ardınca yox etdilər ki, gələcəkdə İrəvanı erməni şəhəri kimi təqdim edə bilsinlər.

Eni 66 metr, uzunluğu 97.2 metr olan Göy məscid İrəvan məscidləri içərisində ölçüsünə görə ən böyüyü və İrəvan şəhərinin mərkəzi came məscidi idi. Məscid 28 hücrə, kitabxana, ibadətgah və iç həyətdən ibarətdir. Ümumilikdə 7.000 kvadrat metrlik ərazidə yerləşir. İkinci dünya müharibəsindən sonra Sovet hökumətinin radikal dünyəvi siyasətinə uyğun olaraq hündürlüyü 24 metr olan 4 minarədən 3-ü söküldü və 1952-də məscidin bir hissəsi planetariyə, bir hissəsi isə məktəbə döndərilmişdir. Məscid XX yüzildə ermənilər tərəfindən iki dəfə yandırılmışdır. İlk dəfə 1918-ci ildə, sonra isə 1955-ci ilin martında azərbaycan din xadimi Mahmud Aruzoğlu, həyat yoldaşı və 22 nəfər türk alimi məsciddə ibadət edərkən yandırılıb.

İşğal olunmuş ərazilərdə əsrlərboyu qalmış dini-mədəni irslərdən sui-istifadə beynəlxalq qanunların və konvensiyaların, o cümlədən "Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunmasına dair 1954-cü il Haaqa Konvensiyası"nın və 1954, 1999-cu il protokollarının açıq şəkildə pozulmasıdır. Erməni təcavüzkarları tərəfindən Azərbaycan Respublikasında İslama aid tarixi və mədəni irsin tamamilə məhv edilməsi barbarlığın, vandallığın nümunəsidir. Ermənilərin bu əməli "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il tarixli Avropa Konvensiyası və "Silahlı münaqişələr zamanı mədəniyyət abidələrinin qorunması haqqında" Avropa Konvensiyasına tam ziddir. Onların etdikləri "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyası, UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1972-ci il Konvensiyası ilə də ziddiyyət təşkil edir.

Təbii ki, Azərbaycanın əsrlərə söykənən tarixi faktları kifayət qədərdir ki, hər bir ərazimizin coğrafi-tarixi mənbələrini əsaslandırmağa dəlillərimiz var. Ermənistan tarixi həqiqətləri qəbul etməlidir, əks təqdirdə "DƏMİR YUMRUQ" onlara həqiqət yolunu bir daha göstərəcəkdir. İrəvana qayıdacağımız zaman Qarabağ və Şərqi Zəngəzurda olduğu kimi, bütün tarixi-dini mədəniyyət abidələrimizə yeni həyat bəxş olunacaq və tarixi ədaləti bir daha bərpa edəcəyik.

***Zümrüd BAYRAMOVA***

III YAZI

# Milli mətbuat 150:
## ənənəvi medianı üstələyən internet mediası

Təməli qəzet, yəni bu gün ənənəvi media adlandırdığımız mətbu orqan üzərində qurulan milli mətbuatımızın 150-ci ilində artıq internet mediası onu sıxışdırıb aradan çıxarıb desək, yanılmarıq. Biz ənənəvi medianı qoruya bilmədik, yoxsa zaman bunu rəva gördü? Müasir texnologiyalar, internet həyatımıza daxil olandan sonra artıq illərdir, ikinci bir media növü yaranıb və tezliyi, operativliyi ilə insanların daha çox müraciət etdiyi media subyektinə çevrilib.

Bəlkə insanlar da dəyişib? Ona görə ənənəvi mətbuatı qəbul etmir, onun uzun illər boyu diktə etdiyi əsl mətbuat obrazında başqa birini görməyi heç nə olmamış kimi hesab edir. Bəlkə heç fərqində deyil ənənəvini qurban verdiyi internet mediası ilə itirdiklərimizin nələr olduğunun? Gəlin bir nəzər salaq: internet mediası nədir, çap mediası nədir? Faydası, yaxşı və pis tərəfləri, mənfi və müsbət cəhətləri, lazımlı və lazımsız olanları ilə...

### İnternet-xəbər mediası

Bu gün "internet mediası nədir?",- deyəndə hamının ağlına gələn tək xəbərdir. Hər gün agentlik və saytlarda, sosial şəbəkələrdə qarşımıza çıxan minlərlə xəbər var. Bir-birinin təkrarı, bəzən istinadlı, bəzən istinadsız xəbərlər. Bəlkə də bir xəbərlə gün ərzində ayrı-ayrı saytlar, sosial şəbəkələrin təqdimatı ilə 10 dəfə qarşılaşırıq. Çünki indi özü xəbər istehsal edən agentlik və saytlar çox az saydadır. İnsanlara xəbər ötürən "jurnalistlər" özlərinə əziyyət verib yeni xəbər axtarışına çıxmır, oradan-buradan oğurlamaqla xəbər yaradırlar. Bax, elə təkcə xəbərlə əhatə olunduğuna görə də müasir dövrün internet mediasının adı xəbər mətbuatından savayı heç nə deyil. Yalnız xəbər. Hələ elə xəbərlərlə qarşılaşırıq ki, sadəcə çağırış və reklam xarakterli sərlövhədən və iki aydın olmayan cümlədən ibarət olur. Beləliklə, biz dünyada və ölkədə baş verən hadisələrin yalnız adını bilirik. Nə üçün, nə səbəbdən, hansı əsasla baş verməsindən isə tamamilə xəbərsizik.

### Bugünkü xəbərlər test imtahanına bənzəyir

Bəlkə də elə bundan qaynaqlanır ki, biz necə təhsil alırıqsa, ona oxşar da mətbuat yaradırıq. İllərdir ki, elə internet mediasi ilə yaşıd olan test imtahanları verərkən sadəcə düz variant olaraq a), b), c), d)-dən birini seçirik. Çünki bütün hadisələri, bilikləri avtomatik olaraq əzbərləyib xanalardan birini qaralayırıq. Lakin yeri gələndə müstəqilliyimizin bərpası gününü zaman etibarilə bilsək də, lakin onun mahiyyətindən, o tarixin yaranma səbəblərindən xəbərsizik. İndi məktəblərin yuxarı siniflərində çox az sayda şagird tapılar ki, 2020-ci ildə əldə etdiyimiz Zəfərin mahiyyətini açıqlaya bilsin...

Test imtahanlarının tətbiqi ilə yaşıd internet mətbuatını da ona oxşar yaratmışıq. Xəbər veririk, lakin bu xəbərin necə, nə səbəbdən, hansı şəraitdə yaranmasından, mahiyyətindən əsla xəbərimiz olmur. Bəzən heç maraqlanmırıq da, sadəcə sərlövhəni oxuyub keçirik. Elə bu səbəbdən də internet mediasini sərlövhə mediası da adlandırmaq yersiz olmaz. Hələ bu xəbərləri jurnalistikadan xəbərsiz, mətbuata mətbuat naminə deyil, kiminsə təbliğatı, təşviqatı ilə məşğul olmağa gələnlər hazırlayırsa ( internet mətbuatı beləlləri ilə doludur), vay bizim halımıza: yüzlərlə əttökən, səviyyəsiz, mətbuata deyil, şəxsi məqsədlərə xidmət edən, nəyinsə hesabına yazılan, mentalitetə balta çalan, adət-ənənələri zəli kimi soran, ləyaqətin başına daş çırpan xəbərlərlə qarşılaşacaqsan. İllər öncə Üzeyir Hacıbəyli felyetonlarının birində yazırdı ki, dükançılar köhnə qəzetin içinə darçın, istiot, mixək bükən kimi, hər yazı yazan da görürsən yazdığı sözlərin içinə bir "ideya" bükür. Bəli, bax, sözlərin içinə bükülən "ideyalarla" mətbuatımızı bu günə qoyanlar var...



### Elə çap mediasına da nə etdisə, belələri etmədimi?..

Bu gün ölkənin əsl ziyalı təbəqəsi çap mediasının hazırkı vəziyyətindən narahatdır. Bu, tək bizdə deyil, qonşu Türkiyədə, bütün dünyada belədir. Çap mediası internet mediasına qurban getməkdədir. Bu da böyük ədalətsizlik, haqsızlıqdır. Nəyə görə? Bir qədər də bu barədə.

Jurnalistika araşdırma aparan, təhlil edən və sorğu-sual etməyi bacaran insanların peşəsidir. Bu gün bütün dünyada jurnalistika ən çətin işlərdən biri hesab olunur. O halda ki, bu peşə öz prinsiplərinə uyğun olaraq həyata keçirilsin. Digər tərəfdən, jurnalistika bir çox digər xüsusiyyətləri ilə yanaşı, tarixlə əlaqəsinə görə digər peşələrdən fərqlənir. Jurnalist öz yazıları ilə gələcəkdə yazılacaq tarixin gündəlik qeydlərini aparır; keçmişin səsinə, gələcəyin izinə çevrilir... Əsl jurnalist olanlar bu gün internet mediasında da var, çap mediasında da, bu, sözsüzdür.

Lakin indi xüsusilə də internet mediasında həyatında bir bədii kitab oxumayan, sözün, cümlənin, mətbuatın nə demək olduğunu əsla bilməyən, jurnalistikaya yamaq "jurnalistlər" də çalışır. Onlar çap mediasında işləyə də bilməzlər. Çünki çap mediası bir ələkdir, zamanla ələyir, ələyin içərisində qalanlar bir kənara atılır. Onlar da özlərinə yalnız gözdən, könüldən uzaq kütləvi informasiya vasitələrində iş tapa bilirlər.

Qəzet nədir? Hər bir ziyalının internet və ya televiziyadan aldığı xəbərin izlənməsi, öyrənilməsi üçün vasitədir. Heç vaxt vaz keçə bilməyəcəyi kütləvi informasiya vasitəsidir. Çünki internet mediası tək xəbər verirsə, çap mediası onun mahiyyətini açır, tarixə baş vurur, təhlil, analiz edir, araşdırır, nəticə ortaya çıxarır. Ölkədə və dünyada olan hadisələri şərh edir. Oxuculara tək xəbər vermir, onları xəbərdar edir, məlumatlandırır. Bütün bunlar isə qəzetlərin arxivlərində tarixləşir. Lazım gələndə vərəqləməklə sanki istənilən bir dövrə qayıdır, baş verən hadisələrlə tanış olmaqla həmin dövrün ziyalısına çevrilə bilirsən.

### Arxivdən söhbət düşmüşkən...

Bir neçə il əvvəl "Naxçıvan blokadası" adlı kitabımla bağlı araşdırma aparırdım. Mənə lazım olan Ümummilli Lider Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşadığı, fəaliyyət göstərdiyi illərlə bağlı sənədlərlə tanışlıq idi. Bunun üçün düşündüm ki, ilk növbədə Naxçıvan Dövlət Arxivinə müraciət edim. İcazə aldım, araşdırmağa başladım. Lakin mənə lazım olanların dəmək olar ki, çox az bir hissəsini orada tapa bildim. Muzeyə getdim, ora da arxiv kimi. Sonra bu qənaətə gəldim ki, Naxçıvanda nəşr olunan "Şərq qapısı" qəzetinin arxivinə müraciət edim. Belə də etdim. 1990-1993-cü illərin qəzet dəstlərini qarşıma qoyub vərəqləməyə başladım. Vərəqlədikcə də belə arxivə, əhsən, dedim. Deməli, Ulu Öndərin Naxçıvan dövrü ilə əlaqədar müfəssəl məlumatları, sənədləri, görüş, səfər, çıxışların hər birini bu qəzet vasitəsilə toplayıb nəşr etdirə bildim. Bu barədə kitabda da qeyr etdim ki, "Şərq qapısı" qəzetinin arxivi qorunmalıdır. Çünki o, bir tarixdir.

Nəinki "Şərq qapısı", ölkəmizdə çap olunan sanballı qəzetlərin hər biri araşdırmaçılar üçün həm bu gün, həm də sabah zəngin mənbədir. Belə isə çap mediasının müasir vəziyyəti narahat etməyə bilmir. Ənənəvi mətbuat nümunələrinin hər biri həm də məktəbdir: jurnalistlik məktəbi. Universitetlərin jurnalistika ixtisasını bitirən tələbələr əgər təhsil ocağında bu peşənin elmi tərəfini mənimsəyirsə, təcrübə yalnız qəzet redaksiyalarında qazanılır. Bu, 150 illik mətbuat tarixində həmişə belə olub. Elə məhz buna görə də bundan sonra necə olacağı mətbuat adamı olan hər kəsi narahat edir. Onu da qeyd etmək yerinə düşər ki, bu, bir faktdır ki, ən yaxşı jurnalistlər qəzet redaksiyalarında yetişir.

### İnternet mediası bizimdirmi?

Xeyr, bizim deyil. Hansı agentlik, sayt rəhbəri bu gün deyə bilər ki, mənim arxivim var. Birincisi internetdə avtomatik olaraq haradasa 10 ildən bir arxivlər silinir. Olur ki, 10 il əvvəlki yazını internetdə axtarmalı olursan, tap görüm, tapa bilirsənmi? Kim dünyada olacaqlardan xəbərdardır və olmayacaqlara qarantidir? İstənilən bir hadisənin baş verməsi ilə internet arxivlər tarixin qəbiristanlığına yollana bilər, həm də bir an içində. Odur ki, internet mediası bizim deyil, çap mediası bizimdir. Biz nəyi əlimizdə tutub saxlaya biliriksə, o bizim ola bilər.

Mütəxəssislər 2034-cü ilə kimi çap mediasının hələlik aktual olacağını hesablayırlar. Deməli, həmin dövrədək arxivlərimiz də olacaq. Bəs sonra? Çap mediası olmayacaqmı? Olmayacaqsa, arxivlər də olmayacaq. Belə olan halda isə dövlətlərin, xalqların tarixi itmiş olacaq, deyilmi? Bu səbəbdən də yəqin ki, çap mediasının müəyyən bir hissəsinin saxlanmasının vacibliyi də dərk olunacaq.

### "Qəzet oxunurmu?" deyənlər də var...

Bəzən sual veririk ki, qəzet oxuyursunuz? Çoxları cavab verir ki, əlbəttə. Lakin "indi qəzet oxuyan var?" deyənlər də az deyil. Qəzet oxumaq həm bir alışqanlıq, həm hobbi, həm maraq dairəsi, əsasən də ziyalılıq deməkdir. Qəzet oxumaq əksər insanlarda həm də bir aclıq hissidir. Bu mənəvi aclığı onlar yalnız qəzet oxumaqla dəf edə bilirlər. Texnologiyanın inkişafına, internet mediasının çap mediasından qabaqda olmasına baxmayaraq yazılı mətbuat hər zaman əl-əl axtarılır və oxunur. Lakin biz etiraf edək ki, dünyada yaxşıları deyil, pisləri əxz etməkdə birinciyik. Bunu geyimimizlə, saçımızla, estetik əməliyyatlarımızla, davranışımızla, yeniliklərə can atmağımızla hər zaman isbatlayırıq.

Lakin dünyada hələ də qəzet oxuyanlar var. Həm də inkişaf etmiş ölkələrdə. Məsələn hesabatlara görə dünyada ən çox qəzet satılan iki ölkə Norveç və Yaponiyadır... Norveçdə hər min nəfərdən 684-ü, Yaponiyada isə hər min adamdan 646-sı hər gün qəzet alıb oxuyur. Tiraj baxımından dünyanın 100 ən böyük qəzetindən 20-si Yaponiyadadır. Onu 18 qəzetlə ABŞ, hər biri 16 qəzetlə Çin və Hindistan izləyir. Maraqlıdır ki, Avropa ölkələri tiraj sıralamasında Hindistandan belə geri qalır... Qlobal tiraj rəqəmlərinə nəzər saldıqda dünyada qəzet oxucularının sayının bir milyardı ötdüyü görünür...

Qonşu Türkiyədə də qəzet oxuyanların sayı az deyil. Bizdə də qəzet oxuyanlar var, həm də tək paytaxtda deyil, regionlarda belə. Redaksiyamıza gələn zənglərə əsasən bunu deyirəm. Hə, regionlardan söz düşmüşkən, biz çap məhsullarımızı regionlara çatdırırıqmı? Əslində bu işi görə biləriksə, onda görərik ki, həqiqətən də çap mediasına maraq çoxdur. Çünki insanlar xəbərlə yanaşı, digər yazıları, təhlil, araşdırmaları da oxumaq istəyirlər. Baxmayaraq ki, internet mediasından sonra qəzet janrlarını da o dünyaya göndərmişik, lakin hələ də əsl jurnalist olanlar onları yaşatmaqdadır. Az olsalar da...

### Çap mediası dayanan an tarix dayanar...

Beləliklə, bu qənaətə gəlmək olar ki, dünyada yazılı mətbuat aktuallığını birdəfəlik itirə bilməz. Yəqin o məqama çatdıqda oturub papaqlarını qarşılarına qoyub fikirləşənlər olacaq. Və onlar da bu qənaətə gələcəklər ki, yazılı mətbuatın üzərindən xətt çəkmək tarixin üzərindən xətt çəkmək deməkdir. Ölkənin ictimai-siyasi, mədəni həyatında baş verən hadisələrin arxivini vərəq-vərəq cırıb küləyə vermək deməkdir.

İnternet mətbuatına arxayın olub yazılı mətbuatı itirmək xalqın tarixinin itməsinə səbəb ola bilər. Çünki heç kim internet mediasına bel bağlaya bilməz. Sabah nə olacağını heç birimiz bilmirik. Yenə də vurğulayaq ki, bir anın içində bu gün saatlarla qopa bilmədiyimiz internetin, sosial şəbəkələrin yaddaşı silinib gedə bilər. Bəs bu zaman əldə nə qalar? Bu barədə düşünən olubmu?.. Beləliklə, internet və çap mediasının hər ikisi vacibdir. Hər ikisi günümüzdür, lakin çap mediası dünənimiz kimi, həm də sabahımızdır.

**_Mətanət Məmmədova_**

*Ukrayna-Rusiya müharibəsini bitirmək barədə düşünüldüyü bir vaxtda hansısa təhdidlər, hədə-qorxular tamamilə yersiz səslənir və münaqişənin başa çatmasına əngəllər törədir. Doğrudur, Zelenski tərəfindən edilən təhdidlər, Rusiyaya qarşı hədə-qorxular bütün dünyanın, ələlxüsus da hərbi ekspertlərin diqqətini cəlb edir, amma mövcud şəraiti nəzərə aldıqda, tamamilə mənasız olduğu zərrə qədər də şübhə doğurmur.*

# Münaqişənin həllinə mane olan MƏNASIZ TƏHDİDLƏR




## Təhdid xarakterli iddialar ancaq təəssüf doğurur və bununla belə, təsirsiz də ötüşmür

Bildiyimiz kimi, Moskvanın atəşkəs təklifinə belə Ukrayna prezidenti şantaj və hədələrlə cavab verir. O, xalqa gündəlik müraciətində Ukrayna kəşfiyyatının mümkün təxribatı barədə danışdığı zaman çox müəmmalı məqamlara, xüsusən də Rusiyaya raket zərbələri ilə bağlı eyham vurur və buna bütün dünya ictimaiyyəti əlbəttə, təhdid kimi baxır. Daha dəqiq desək, münaqişənin nizamlanması, müharibənin sona çatdırılması müzakirə olunduğu bir vaxtda belə təhdidlər, belə hədə-qorxular heç kimin ürəyincə deyil. Amma reallıq bundan ibarətdir ki, təhdidlər var və nə qədər mənasız olsa belə hadisələrin gedişinə, xüsusən də nizamlanma prosesinə təsirsiz ötüşmür. Ən azından politoloqların, hərbi ekspertlərin belə diqqətindən yayınmır.

"Biz Rusiyanın ağrılı nöqtələrini seçirik, hansıki, bunlar Moskvanı diplomatiyaya ən çox sövq edəcək. İndi onlar çox narahatdırlar və narahat olmaqda da haqlıdırlar. Amma bu müharibənin davam edəcəyindən narahat olmalıdırlar. Onlar müharibəyə son qoymalıdırlar", deyə Ukrayna prezidenti bildirib. Zelenskinin sözlərindən belə çıxır ki, onun təhdid etməkdə məqsədi Kremli danışıqlara məcbur etməkdir. Maraqlıdır, bu qədər hadisələrdən, bu qədər davam edən müharibədən, tətbiq edilən sanksiyalardan və təsirlərdən sonra Moskva nəyə isə məcbur edilə bilməyibsə, indi hansısa raket hücumu təhdidi Rusiyanı nəyə məcbur edə bilər? Əgər bu gün ABŞ kimi bir ölkə Rusiya ilə artıq təhdid, təzyiq, sanksiya dili ilə danışmırsa, danışıqlara, razılaşmalara üstünlük verirsə, Ukrayna prezidentinin nəyə isə ümid etməsi heç bir məntiqə sığışmır və mənasız təhdid təəssüratı bağışlayır. Ukraynanı bir zamanlar silah-sursatla, iddialara görə 350 milyard məbləğində vəsaitlərlə təmin edən, daha doğrusu, Ukraynaya yardım edən ABŞ kimi bir hegemon ölkə təhdid dili ilə danışmadığı halda, yardımı alan ölkənin liderinin təhdid dili ilə danışması çox mənasız görünür.

Zelenskinin ardınca Ali Radanın Milli Təhlükəsizlik və Müdafiə Komitəsinin katibi Roman Kostenko Ukrayna Silahlı Qüvvələrinin Qızıl Meydana mümkün zərbə endirmək üçün güclü uzaqmənzilli silahlara malik olduğunu iddia edib. "Düşünürəm ki, Rusiyanın bütün hava hücumundan müdafiə sistemləri Qızıl Meydanı əhatə edəcək. Amma bizim uzaqmənzilli silahlarımız var və belə bir əməliyyatı təşkil etmək çətin olmayacaq", deyə Ali Radanın Milli Təhlükəsizlik və Müdafiə Komitəsinin katibi bildirib. Əslində, Roman Kostenko özü də bununla məhz iddialarla çıxış edib və bu iddiaların da təhdid xarakterli olduğu bəllidir. Bu şəkildə iddialar sözsüz ki, təəssüf doğurur və nə qədər mənasız olsa belə təsirsiz də ötüşmür. Hətta Zelenskinin, eləcə də Ali Radanın Milli Təhlükəsizlik və Müdafiə Komitəsi katibinin bu şəkildə təhdid xarakterli çıxışları ukraynalı politoloqları belə çaşdırıb. Onların bəziləri öz çaşqınlıqlarını belə gizlətmirlər. Rusiyaya səfər edən irlandiyalı jurnalist Çey Bouz belə Zelenskinin hədələrinə təəccübləndiyini gizlətməyib. Hərbi ekspertlər belə mövcud vəziyyətə qətiyyən biganə yanaşmırlar və açıq şəkildə fikirlərini də ifadə edirlər. Məsələn, hərbi ekspert Aleksey Anpiloqovun bunu bu görə bilirik. "Ən azından belə bir mövqeyə görə narahatlıq açıq şəkildə ifadə olunur. Bu, Trampın CBS telekanalına verdiyi son müsahibəsində də öz əksini tapır, hansıki, o Zelenskinin əlində heç bir kozır olmadığını, lakin bu kartları bəzi başqa kartlarla əvəzləməyə çalışdığını bildirir və bunun terror fəaliyyəti ilə bağlı da ola biləcəyini nəzərdə tutan fikirlər səsləndirir", deyə hərbi ekspert Aleksey Anpiloqov qeyd edib. Deməli, hər kəsə bəllidir ki, təhdid xarakterli iddialar ancaq təəssüf doğurur və bununla belə, təsirsiz də ötüşmür.

## Kiyev hansı silahlardan istifadə edə, hansıları tətbiq edə bilər?

Zelenski və Ali Radanın deputatları hansı silahlardan danışırlar? Nəzəri olaraq, iddia edirlər ki, Alman Taurus raketləri və Amerika JASSM-ləri Moskvaya çata bilər. Bildirilir ki, daşıyıcı F-16 qırıcının da bu sırada olma ehtimalı var. Ancaq məsələ burasındadır ki, bu cür sursatların Ukraynaya tədarük olunub-olunmadığı barədə rəsmi heç bir məlumat yoxdur. Deməli, bu sadalananlar ancaq nəzəri olaraq ortaya atılır və mənasız söz yığınından başqa bir təəssürat bağışlamır. Hətta digər variant kimi Ukrayna tərəfindən hazırlanmış raketlər barədə də fikirlər, iddialar var. Lakin bunun elə yalnız fikir və iddia olduğu həqiqətə daha uyğundur.

"Bu cür silahların yaradılması üçün istifadə oluna bilən əsas və baza raket kimi, hazırlanması dövrünün əvvəlində "Sapsan" kimi tanınan "Qrom-2" kompleksidir. Bu elə bir ballistik raketdir ki, müəyyən mənada Rusiyanın "İskəndər"inin imkanlarına uyğun gəlməli idi. Məsələ burasındadır ki, hələ də ondan geri qalır. Məsələn, belə deyək ki, özünün imkanları baxımından, hərbi cəhətdən zəif hesab olunur", deyə hərbi ekspertlər bu qənaətdədirlər. Deməli, hərbi ekspertlər heç də Zelenski və onunla eyni fikirdə olanlarla razı deyillər. Bu isə onu deməyə əsas verir ki, bütün iddialar ancaq mənasız təhdiddən başqa bir şey deyil.

Sonuncu dəfə, 2024-cü ilin payızında Zelenskinin məhz raket sisteminin uğurlu sınağını elan etdiyini çoxları unutmayıb. Bununla belə, Rusiyaya məxsus "İskəndər" raketinin Odessa vilayətinin cənubunda Qrom-2-ni məhv etdiyi də xatirimizdədir. O vaxtdan bəri bu sistem xüsusi hərbi əməliyyat zonasında görünmədi. Diqqətə çatdıraq ki, məhz bu məqam Ukraynanın inkişafının hələ də seriyalı istehsaldan uzaq olduğunu göstərən məqamdır. Lakin onu da nəzərə alaq ki, Kiyev uzun müddətdir artıq Moskvaya zərbələr endirmək üçün, bir-birinin ardınca uzaq mənzilli dronlardan istifadə edir.

"Lyutıy" pilotsuz uçan aparatı dron modellərindən biridir. Bu, özü də ən məşhurudur, daha çox "tanınan" sayılır. Çünki Rusiyanın arxa cəbhəsinə vurulan bütöv bir sıra yüksək profilli zərbələr məhz bu dronlarla endirilib və məhz bu baxımdan da ruslara daha çox "tanış" hesab edilir. Ukraynalılar bu dronu hər mənada, hər istiqamətdə istifadə edirlər. Amma diqqətə çatdıraq ki, "Lyutıy" dronundan başqa, məsələn, "Bober" adlı pilotsuz təyyarə də var", deyə hərbi ekspert Anpiloq vurğulayıb. Diqqətə çatdıraq ki, "Bober" və "Lyutıy" kamikadze dronlarının uçuş məsafəsi təxminən 1000 kilometrdir. Bu, arxa bölgədən havaya qalxmaq və kiçik döyüş başlığı ilə Moskvaya uçmaq üçün kifayətdir. Amma belə dronları asanlıqla vururlar. Üstəlik, Moskva ətrafında səma tamamilə bağlıdır. Yəni, bunlar üçün nə imkan, nə də şərait mövcud deyil. "Tez-tez elə vəziyyətlər yaranır ki, Rusiya Federasiyasının yalnız bir regionu üzərində, məsələn, Bryansk və ya Belqorod üzərində bir neçə yüz pilotsuz uçan aparat ələ keçirilir. Məsələn, konkret olaraq belə bir fakt məlumdur ki, Bryansk vilayəti üzərində bir gündə 150 pilotsuz uçuş aparatı ələ keçirilib. Yəni, bu, Rusiyanın hava hücumundan müdafiə sisteminin işinin çox ciddi göstəricisidir", deyə mütəxəssislər belə qənaətdə olduqlarını gizlətmirlər.

## Moskva səmalarını qoruyan silahlar

Moskva hava hücumundan müdafiə baxımından bəlkə də ümumilikdə, planetin ən qorunan şəhərlərindən biri sayılır. Bu heç də təsadüfi deyil. Xatırladaq ki, bir qədər əvvəl Rusiya NATO-nun böyük raket hücumunu dəf etməyə hazırlaşırdı və məhz buna görə də Rusiya paytaxtı ətrafındakı hərbi hissələr S-300, S-400 və S-500 sistemləri ilə təchiz olunaraq hazır vəziyyətə çoxdan gətiriliblər. Hava Hücumundan Müdafiə Qoşunlarının təcrübəsi göstərdi ki, pilotsuz təyyarələrin vurulmasında orta və yaxın mənzilli sistemlər daha effektivdir.

"Müdafiə məsələlərinə görə eyni zamanda daha etibarlı olanı "Pantsir" sayılır, hansıki, raketdən qat-qat ucuz olan top silahından istifadə etməklə, aşağıdan uçan və aşağı sürətli hədəfləri vura bilir", deyə hərbi ekspert Anpiloqov vurğulayıb. "Pantsir" ləqəblilər Moskva vilayətinin səmasını tamamilə əhatə edir. Eyni zamanda onlarla yanaşı, daha güclü sistemlər, yəni, "Tor" və "Buk" artıq "döyüş növbətçiliyində" hazır vəziyyətdədirlər. Bu texnika artıq döyüşdə öz effektivliyini nümayiş etdirib və bir növ, özünü təsdiq də edib. Bir sözlə, Moskva səmalarını qoruyan silahlar kifayət qədər, yetərincədir.

## Təhdidlər nəzərdə tutulan heç bir məqsədə nail olmağa kömək edən deyilsə, sadəcə olaraq mənasızdır...

Zelenski sanki Avropa liderlərinin Moskvaya deyil, Kiyevə "toplaşması" üçün bir çox hədələrə əl atır. Yəqin ki, bir planı da var. Ən azından Moskvada deyil, Kiyevdə danışıqlar arzusundadır. Məsələ burasındadır ki, onun arzuları heç hesaba da, nəzərə də alınana oxşamır. Çünki Avropa liderləri artıq öz plan və proqramlarına uyğun olaraq səfərlər planlaşdırırlar. Onların hər birinin özünə məxsus "vacib işləri" var. Məsələn, Polşanın baş naziri Donald Tusk Makronla təhlükəsizlik müqaviləsi imzalamaq üçün Fransanın Nansi şəhərinə səfər planlaşdırır. Böyük Britaniyanın baş naziri Keir Starmer müdafiə sammiti üçün Norveçə uçur. Almaniya kansleri vəzifəsinə namizəd olan Fridrix Merz isə Bundestaqda rəsmi təsdiqini alana qədər heç yerə getməməyi doğru hesab edir və bu məqamda Ukrayna da, Zelenskidə heç birinin yadına düşmür.

Belə çıxır ki, Zelenski mənasız təhdidlər edir. Hər mənada bunu təkzib etmək mümkün deyil. Əvvəla ona görə ki, onun istifadə etmək üçün kifayət qədər silahının, sursatının olub-olmaması hələ bəlli deyil və çox müəmmalı, çox şübhəli məqamdır. İkincisi, məhz istifadə oluna bilən silahların, xüsusən də raketlərin hansısa zərbə vurma, xəsarət yetirmə ehtimalı Moskva səmalarının yetərincə qorunması fonunda sıfıra bərabərdir. Digər tərəfdən də əgər məhz hansısa təhdid vasitəsinə əl atmaqla, dünya siyasətçilərini, ələlxüsus da Avropa liderlərini Rusiyaya deyil, öz ölkəsinə, Ukraynaya yığmaq istəməsi də onların öz maraqları fonunda reallıqdan kənardır və liderlərin heç biri üçün bu "variant" təsirli, yəni, "keçərli" sayılmır. Deməli, buradan belə məlum olur ki, təhdidlər nəzərdə tutulan heç bir məqsədə nail olmağa kömək edən deyilsə, sadəcə olaraq mənasızdır...

**İnam Hacıyev**

# “Biz yaradıcı və perspektivli bir yanaşma ilə bölgənin inkişafına töhfə veririk”

**“Prezidentin son bölgə səfəri - Ağdam və Şuşaya etdiyi səfərlər, əlbəttə ki, planlı şəkildə həyata keçirilən səfərlərdir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib. O bildirib ki, dövlət başçısı bu ərazilərdə aparılan quruculuq və bərpa işlərini, kommunikasiya infrastrukturunun yaradılmasını daim nəzarətdə saxlayır: ”Ümumiyyətlə, regionun dirçəlişi çox mürəkkəb və mərhələli şəkildə həyata keçirilir. Burada dəqiqlik, sabit və etibarlı əlaqələndirmə, eləcə də, nəzarət mütləqdir.**





Cənab Prezident dövlət başçısı kimi bütün prosesləri şəxsən nəzarətdə saxlayır, eyni zamanda müvafiq tövsiyələrini verir. Bəzən görülən işlər zamanı dəyişikliklərə ehtiyac yaranır və ya əvvəldən nəzərdə tutulmayan fors-major halları ortaya çıxır. Prezident bu kimi halları nəzərə alaraq öz təcrübəsini ustalıqla tətbiq edir - həm məlumatlılıq fonu yaradır, həm də bölgəyə səfərləri zamanı yerli əhali, memarlar, texnoloqlar, mühəndislər və digər mütəxəssislərlə görüşlər keçirir. Bu görüşlər vasitəsilə ictimaiyyət bölgədəki real vəziyyətlə əyani şəkildə tanış olur. Mətbuat və televiziya vasitəsilə bu proseslər cəmiyyətə çatdırılır.

Bölgədə həyata keçirilən layihələr və işlər demək olar ki, ümumxalq səviyyəsində reallaşdırılır. Buna görə də Prezidentin bu məsələlərə münasibəti xüsusi əhəmiyyət daşıyır. Digər tərəfdən, biz bu prosesləri dünya ictimaiyyətinə nümayiş etdiririk ki, Azərbaycan Ermənistanla müqayisədə sivil, qurucu və beynəlxalq hüquqa hörmət edən dövlətdir. Ermənistan 28 il ərzində işğal etdiyi torpaqlarımızda hər şeyi dağıtdı, yerlə-yeksan etdi. Azərbaycan isə qısa müddət ərzində həmin ərazilərdə abadlıq, bərpa və minalardan təmizləmə işləri aparır. Biz yaradıcı və perspektivli bir yanaşma ilə bölgənin inkişafına töhfə veririk”.

”Ermənistan mətbuatında yayılan yalanlar və böhtanlar əslində onların öz dağıdıcı mahiyyətini ortaya qoyur. Biz isə dünyaya sübut edirik ki, bu torpaqlarda quruculuq və bərpa işləri həyata keçirən, sülhə və əməkdaşlığa çalışan tərəf məhz Azərbaycandır. Bu iki xalqı eyni müstəviyə qoymaq doğru deyil. Çünki biz bu torpağın qədim xalqıyıq, onlar isə sonradan gəlmişlərdir. Azərbaycanın siyasi xətti və mövqeyi bəllidir, açıq və prinsipialdır.

Xalqımızın yaratdığı zəngin ənənələrə sadiq qalmaq, onları yaşatmaq bizim borcumuzdur. Heç bir dağıntı və çətinlik bizi bu yoldan çəkindirməməlidir. Bu torpaq əzəldən bizim olub, bizimdir və gələcəkdə də bizim olacaq.

Təbii ki, hər bir səfər zamanı Prezident yeni məsələləri gündəmə gətirir. Bu dəfə də həmin ənənə davam etdi. Çünki görülməsi işlər hələ çoxdur. Amma bu bizi qorxutmur, əksinə, ruhlandırır. Azərbaycanın həyata keçirdiyi ”açıq qapılar” siyasəti ilə beynəlxalq ictimaiyyətə mesaj verilir ki, biz əməkdaşlığa açığıq və bütün öhdəliklərimizi yerinə yetirməyə hazırıq. Məhz bu səbəbdən Özbəkistan, Qazaxıstan, Qırğızıstan kimi qardaş dövlətlər də Azərbaycana xüsusi diqqət və dəstək göstərirlər” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Azərbaycan-Vyetnam əlaqələrində yeni mərhələ

Avropanın enerji xəritəsini dəyişən Azərbaycan əməkdaşlıq coğrafiyasını genişləndirərək Asiya ölkələri ilə də əlaqələrin qurulmasına, inkişafına xüsusi önəm verir. Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın ölkəmizə səfəri qeyd olunan fikrin daha bir təsdiqidir. Bu məqamda onu qeyd edək ki, Azərbaycan və Vyetnamı yarım əsrdən çox dostluq əlaqələri birləşdirir. Azərbaycan - Vyetnam əlaqələri yeni deyil. Hələ Azərbaycan sovetlərin işğalı altında olanda belə bu ölkə ilə Azərbaycan SSR arasında mədəni, elmi sahədə əlaqələr var idi.

Görüşdə iki ölkə arasında diplomatik münasibətlərin 30 il ərzində mövcud olmasına baxmayaraq, dostluq təmaslarının hələ keçən əsrin 50-ci illərinin sonlarına təsadüf etdiyi vurğulanıb. Həmin dövrdən etibarən Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Minin Azərbaycana, prezident Heydər Əliyevin isə SSRİ rəhbərliyində olduğu zaman Vyetnama səfərləri məmnunluqla xatırlanıb.

1959-cu il iyulun 23-də prezident Ho Şi Min Azərbaycanın (o zaman Sovet İttifaqının tərkibində olan) paytaxtı Bakıya səfər edib. Hanoyda Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası və Azərbaycanın Vyetnamdakı səfirliyi ilə birgə 2019-cu il iyulun 23-də ölkə paytaxtı Hanoyda bu səfərin 60 illiyinə həsr olunan tədbir keçirilmişdi. Tədbirdə Vyetnam-Azərbaycan Dostluq Cəmiyyətinin rəhbərləri, rəsmi şəxslər, Azərbaycanda təhsil almış və işləmiş tələbələr iştirak etmişdilər.

Ötən illər ərzində Azərbaycan Respublikasının universitetləri Vyetnam üçün minlərlə mühəndis, həkim və alim hazırlayıb. Təkcə Azərbaycan Neft və Kimya Universiteti, indiki Azərbaycan Neft və Sənaye Universiteti, son 50 il ərzində (1967-2017) 500-dən çox vyetnamlı vətəndaşı ali təhsilli mütəxəssis kimi hazırlayıb.



***Cavid ABASZADƏ,***
***Coğrafiya müəllimi***

”Vietsovpetro” şirkətinin yaradılmasından bir müddət sonra Sovet İttifaqı Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev 1983-cü ildə Vyetnama rəsmi səfər edib. Səfər çərçivəsində Heydər Əliyev Vyetnam və sovet, o cümlədən Azərbaycan neft mütəxəssisləri ilə görüşmək üçün Vunq Tau şəhərinə də baş çəkmişdi. Onun səyləri, Bakıdan gətirilən əlavə azərbaycanlı mütəxəssislərin və texnikanın cəlb edilməsi nəticəsində Vyetnamda ilk neft proqnozlaşdırıldığından xeyli əvvəl hasil olunur.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin səfərindən sonra minlərlə azərbaycanlı mütəxəssis Vyetnamın müharibədən sonrakı infrastrukturunun bərpasına, xüsusilə neft sənayesinə kömək etmək üçün ora göndərilib. Ümumilikdə 5000-dən çox vyetnamlı tələbə və aspirant da Azərbaycanın təhsil müəssisələrində təhsil almaq, burada işləmək üçün göndərilib. Onlar bu ölkənin quruculuğuna və inkişafına mühüm töhfə veriblər.

1983-cü ilə qədər Ulu Öndər Heydər Əliyev həmçinin Vyetnam Kommunist Partiyasının ovaxtkı Baş katibi Le Zuanla görüşmək imkanı əldə edib. 1981-ci ildə Sovet İttifaqı Kommunist Partiyasının XXVI qurultayında iştirak etmək münasibətilə Le Zuan Azərbaycana səfər edib. O zaman Ulu Öndər SSR-in KP MK-nın birinci katibi idi. Vyetnama bu səfərin 40 illiyi ərəfəsində Hanoyda Ümummilli Lider Vyetnam arasında dostluq quruculuğu missiyasına töhfəsinə həsr olunmuş seminar keçirilib. İki respublika arasında əlaqələr ABŞ ilə müharibədən sonra da davam edib. Azərbaycan SSRİ-nin tərkibində olmasına baxmayaraq, Vyetnama azadlıq müharibəsində və birləşmə prosesində göstərdiyi dəstək xalq tərəfindən yüksək qiymətləndirilib.

Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın mayın 7-də Bakıya səfəri də ötən illərin əlaqələrinin məntiqi davamı sayıla bilər. Prezident cənab İlham Əliyevlə To Lamın başçılıq etdiyi nümayəndə heyəti qarasında geniş tərkibdə görüşü keçirilib.

Baş katib To Lamın Azərbaycana səfəri çərçivəsində tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın imzalanması iki ölkə münasibətlərinin tarixində yeni dövrün başlanğıcı oldu. Cənab Baş katibin əminliklə söylədiyi kimi, biz yaxın zamanlarda ikitərəfli münasibətlərimizi dərinləşdirə və genişləndirə biləcəyik, inkişaf naminə üstün cəhətlərimizdən faydalanacağıq. Birgə Bəyanatda partiya, dövlət, parlament kimi bütün səviyyələrdə əlaqələri və təmasları, hökumətlərarası komissiya vasitəsilə iqtisadi əməkdaşlığı fəallaşdırmaq kimi mühüm məqamlar öz əksini tapıb.

Azərbaycan və Vyetnam arasında ticarət dövriyyəsi də dinamik inkişaf edir. 2024-cü ilin göstəricilərinə əsasən, iki ölkə arasında əmtəə dövriyyəsi 223,93 milyon ABŞ dolları təşkil edib. Bu, əvvəlki illərlə müqayisədə ciddi artım deməkdir. Əsas ticarət sahələrinə neft-kimya məhsulları, kənd təsərrüfatı malları və sənaye avadanlıqları daxildir. Eyni zamanda, hər iki ölkə qarşılıqlı investisiyalar üçün hüquqi baza və biznes mühiti yaratmaq istiqamətində addımlar atır. Bu sahədə Azərbaycan - Vyetnam Hökumətlərarası Komissiyasının fəaliyyəti xüsusilə önəmli rol oynayır.

Komissiya çərçivəsində keçirilən görüşlərdə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi, ticarətin şaxələndirilməsi və nəqliyyat - logistika imkanlarının inkişafı kimi vacib məsələlər gündəmdədir. Hər iki ölkə beynəlxalq ticarət dəhlizlərində iştirakı gücləndirməkdə maraqlıdır. Enerji sahəsində zəngin təcrübəyə malik olan Azərbaycan son illərdə həm də ”yaşıl” enerji mənbələrinin inkişafına strateji yanaşma nümayiş etdirir. Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə ölkəmiz 2030-cu ilə qədər bərpa olunan enerji istehsalının ümumi enerji balansında əhəmiyyətli yer tutmasına nail olmağı qarşıya məqsəd qoyub. Bu kontekstdə Vyetnamla əməkdaşlıq geniş imkanlar vəd edir.

Vyetnam da öz növbəsində, Cənub-Şərqi Asiyada alternativ enerji potensialına malik ölkə kimi tanınır. Hər iki ölkə günəş, külək və biokütlə enerjisi sahəsində təcrübə mübadiləsi aparmağa, texnoloji bilikləri bölüşməyə və birgə investisiya layihələrini həyata keçirməyə maraqlıdır. Beləliklə, Vyetnam liderinin ölkəmizə səfəri iki ölkə əlaqələrinə yeni məzmun qataraq münasibətləri daha arzulanan pilləyə qaldırdı.

Şübhəsiz ki, Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi bu yüksək səviyyəli münasibətlər gələcək ikitərəfli əməkdaşlıq üçün də ən vacib rol oynayacaqdır. Bu əlaqələrin inkişaf etməsi üçün regiondakı şəraitdən Vyetnamın da yararlanması üçün Azərbaycan ona ənənəvi yardımını və dəstəyini verə bilər. Çünki Azərbaycanla Vyetnam ötən əsrdən bir-biri ilə elan edilməmiş tərəfdaşdır.

# Azərbaycanla Vyetnamı tarixi dostluq münasibətləri birləşdirir

***Azərbaycan dünyanın inkişaf edən, azad, demokratik dövlətlərdən biri olaraq müxtəlif beynəlxalq təşkilatlarla və dövlətlərlə əlaqələrini yeni dövrün tələblərinə uyğun genişləndirməkdədir. Azərbaycanın Asiya-Sakit okean dövlətləri ilə münasibətlərini genişləndirməsi xüsusi əhəmiyyət daşıyır. Vyetnam Sosialist Respublikası ilə Azərbaycan arasında münasibətlərin inkişafı, yeni dövlətlərarası müqavilələrin imzalanması alqışlanan və dəyərləndirilən müsbət hadisələrdəndir. İki dövlətarasında əlaqələrini inkişaf etdirilməsi təsadüfi deyil. Hələ SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev 1983-cü ildə Vyetnama səfər etməklə, o zaman çətin, ağır dövr yaşayan Vyetnam xalqına əhəmiyyətli dəstəyin ifadəçisi idi.***

Azərbaycanla Vyetnam arasında ikitərəfli əlaqələr, demək olar, stabil xarakterə malikdir. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub. 2014-cü ilin mayında Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasına dövlət səfəri ölkələr arasındakı münasibətlər tarixində yeni səhifə açmış, əlaqələrin bütün sahələr üzrə əməkdaşlığın inkişafına güclü təkan vermişdir. 2015-ci ilin mayında Vyetnam Sosialist Respublikasının Prezidenti Truong Tan Sangın Azərbaycana rəsmi səfəri isə Azərbaycan-Vyetnam münasibətlərinin tarixində vacib hadisə olmuş və iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsi və dərinləşməsinə şərait yaratmışdır. Son illər ərzində iki ölkə arasında çoxşaxəli əməkdaşlıq qurulmuşdur. İqtisasi-ticarət əlaqələrinin dərinləşməsi hər iki xalqın maraqlarının təmin olunmasına köklü təsir edib. 2024-cü ildə Azərbaycan və Vyetnam arasında əmtəə dövriyyəsi 223,93 milyon ABŞ dollarına çatıb və bu, qarşılıqlı potensialın yalnız bir hissəsidir. Neft və qaz sahəsində əməkdaşlıq isə dərin tarixi köklərə söykənir. 2019-cu ildə SOCAR ilə Vyetnamın "Binh Son Refinery and Petrochemical Company" şirkəti arasında imzalanmış müqavilə bu sahədə qarşılıqlı maraqların konkret nəticələrə çevrilməsinin sübutudur.

## Liderlərin qarşılıqlı səfərləri ölkələrimiz arasında əməkdaşlığın inkişafının möhkəm əsaslarını qoyub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnam Sosialist Respublikasının "Vietnam News Agency" agentliyinə verdiyi müsahibəsində xüsusi ilə toxunmuşdur. Bildirmişdir ki, Azərbaycanı və Vyetnamı yarım əsrdən artıq tarixə malik dostluq münasibətləri birləşdirir : "Azərbaycan - Vyetnam münasibətlərini təhlil edərkən Azərbaycan xalqının Ümummilli Lideri, Vyetnamın böyük dostu Heydər Əliyevin rolunu xüsusi ilə qeyd etmək lazımdır. Onun bu ölkəyə səfəri Vyetnam üçün olduqca böyük, başqa sözlə, həyati əhəmiyyəti var idi. Əlbəttə ki, Fransa işğalından, ABŞ ilə dəhşətli müharibədən, eləcə də digər dövlətlərin müdaxiləsindən sonra da, Vyetnam regionda gedən geosiyasi proseslər fonunda yenə ciddi təhdidlə üzləşmişdi. Belə bir məqamda dahi Heydər Əliyevin səfəri Vyetnam xalqı və hökuməti üçün böyük dəstək ifadə edirdi. Prezidentimiz İlham Əliyevin onu da



***Eldar İbrahimov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri, professor***

bildirmişdir ki, iki ölkə liderlərinin səfərləri ölkələrimiz arasında əməkdaşlığın inkişafının möhkəm əsaslarını qoymuşdur: "1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Min Azərbaycan SSR-ə səfər edib. O dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev 1983-cü ildə Vyetnamda səfərdə olub. Şübhəsiz ki, bu əlamətdar səfərlər ölkələrimiz arasında əməkdaşlığın inkişafının möhkəm təməlinə çevrilib".

Azərbaycan Prezidenti İlham Əliyev "Vietnam News Agency" agentliyinə müsahibəsində əsaslı olaraq bildirib ki, Azərbaycanla Vyetnam arasında ikitərəfli əlaqələri bundan sonra da inkişaf etdirmək üçün bütün imkanlara malikdir. İqtisadi-ticari münasibətlərə toxunan dövlət başçısı qeyd edib ki, bu gün təkcə iqtisadi artımı stimullaşdıracaq deyil, həm də qarşılıqlı faydalı tərəfdaşlıq üçün dayanıqlı zəmin yaradacaq, bununla da öz növbəsində iqtisadiyyatlarımızın gələcəkdə də şaxələndirilməsinə kömək edəcək yeni əməkdaşlıq imkanları mövcuddur. İkitərəfli əlaqələr son illər daha da inkişaf etməkdədir". Hər iki ölkənin hakim partiyaları - Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında geniş və əhatəli əməkdaşlıq münasibətləri mövcuddur. Bunla bağlı Prezident İlham Əliyev "Vietnam News Agency" agentliyinə vurğuladığı kimi, "partiyalararası əlaqələr qarşılıqlı siyasi etimadın təzahürü olmaqla yanaşı, ideoloji və institusional müstəvidə münasibətlərin dayanıqlı inkişafına xidmət edir. Bu dinamika, xüsusilə də qarşılıqlı səfərlər fonunda daha da güclənməkdədir".

Prezident İlham Əliyev müsahibədə Vyetnam liderinin ölkəmizə səfəri ilə bağlı bildirdi ki, bu fəal əməkdaşlığa mühüm təkan olacaq: "Azərbaycanla Vyetnam arasında münasibətlərin dostluq və qarşılıqlı hörmət ruhunda inkişafı üçün yeni üfüqlər açılır. Səfər çərçivəsində siyasi dialoqa, iqtisadi-ticari əlaqələrə, həmçinin humanitar və mədəni mübadiləyə xüsusi diqqət yetiriləcək.

Bundan başqa, partiyalararası dialoqun inkişafına ayrıca əhəmiyyət verilir. Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq müsbət dinamika nümayiş etdirir. Qarşıdakı səfər siyasi və ideoloji zəmində qarşılıqlı fəaliyyətin yüksək səviyyəsinin əlavə təsdiqi olacaq. Ölkələrimiz ən müxtəlif sahələrdə əməkdaşlıq potensialını bundan sonra da inkişaf etdirmək üçün bütün imkanlara malikdir. Sözsüz ki, iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsinin əsas perspektivli istiqamətlərindən biri turizmdir".

## Parlamentlər və xarici işlər nazirləri arasında qurulan geniş əlaqələr

Azərbaycan və Vyetnam beynəlxalq aləmdə bir-birinin mövqelərini dəstəkləyirlər. Hər iki ölkə BMT və Qoşulmama Hərəkatı kimi platformalarda bir-birinə dəstək göstərirlər. Hər iki ölkənin xarici işlər nazirlikləri arasında keçirilən siyasi məsləhətləşmələr və parlamentlərarası işçi qrupların fəaliyyəti bu əməkdaşlığı daha da dərinləşməsinə təkan verir. Bu günlərdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Vyetnamın baş nazirinin müavini, xarici işlər naziri Bui Tan Son ilə görüşüb. Görüşdə Azərbaycan və Vyetnam arasında strateji tərəfdaşlığın inkişaf perspektivləri, ikitərəfli və çoxtərəfli əməkdaşlığın gələcəyi, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub. İki ölkə arasında qarşılıqlı səfər və təmasların, xüsusilə Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfərinin, habelə sözügedən səfər çərçivəsində Azərbaycan ilə Vyetnam arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanatın qəbul edilməsinin əməkdaşlıq gündəliyində müstəsna əhəmiyyəti vurğulanıb. İqtisadiyyat, ticarət, müdafiə sənayesi, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiyalar, humanitar sahələr üzrə əməkdaşlığın geniş perspektivlərinin mövcudluğu qeyd edilib, bu imkanlardan istifadənin stimullaşdırılması üçün bir sıra mexanizmlər, o cümlədən siyasi məsləhətləşmələr, habelə Hökumətlərarası Komissiya kimi platformalardan istifadənin zəruriliyi qeyd edilib.Regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub, qarşılıqlı dəstək və həmrəyliyin davam etdirilməsinin vacibliyi diqqətə çatdırılıb. Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Əlaqələrin inkişafına yeni töhfə

Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana səfəri iki dövlət arasında əlaqələrin inkişafına yeni töhfə verəcək. Bunla bağlı mətbuata bəyanatla çıxışında Azərbaycan Prezidenti İlham Əliyev bildirdi ki, bu gün imzalanmış sənədlər arasında Azərbaycan ilə Vyetnam arasında qəbul edilmiş Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanatı xüsusilə qeyd olunmalıdır: "Bu, çox ciddi siyasi sənəddir. Bu, əslində, Vyetnam-Azərbaycan əlaqələrini daha yüksək pilləyə qaldıran bir sənəddir. Əminəm ki, artıq bu yüksəksəviyyəli münasibətlər gələcək ikitərəfli əməkdaşlıq üçün də ən vacib rol oynayacaqdır. Gördüyünüz kimi, bu gün imzalanmış sənədlər arasında bir çox istiqamətlər üzrə sənədlər var. Bu gün apardığımız danışıqlar və əldə edilmiş razılaşmalar deməyə əsas verir ki, biz qarşılıqlı əməkdaşlıq istiqaməti üzrə çox ciddi addım atmışıq. Vyetnam Kommunist Partiyasının Baş katibinin Azərbaycana dövlət səfəri çərçivəsində bu sənədlərin imzalanması, əlbəttə ki, onların əhəmiyyətini daha da artırır".

Azərbaycan Prezidenti onu da qeyd etdi ki, bizim birgə səylərimiz nəticəsində ticarət, iqtisadiyyat, mədəniyyət, təhsil, energetika, nəqliyyat və digər istiqamətlər üzrə çox ciddi əməkdaşlıq potensialı var: "Bu gün bu və digər istiqamətlər üzrə məsələlər geniş müzakirə edildi. Energetika sahəsində imzalanmış sənədlər və apardığımız müzakirələr deməyə əsas verir ki, biz yaxın gələcəkdə bu sahədə əməkdaşlığımızı daha da genişləndirəcəyik. Bu gün bu əməkdaşlıq var və daha çox ticarət əməkdaşlığı formasında aparılır. Ancaq qarşılıqlı sərmayə qoyuluşu məsələləri də müzakirə edildi. Həm Vyetnam şirkətlərinin Azərbaycana, həm də Azərbaycanın neft şirkətinin Vyetnama sərmayə qoyuluşu məsələləri müzakirə olundu və göstəriş verildi ki, aidiyyəti qurumlar bu məsələlərlə bağlı konkret addımlar atsınlar".

Prezident İlham Əliyev qeyd etdi ki, bu gün bir çox istiqamətlər üzrə apardığımız müzakirələr əsnasında görürük ki, fikir ayrılığı yoxdur : " Əksinə, biz demək olar ki, vahid mövqedən çıxış edirik. Baxışlarımızda da bir çox oxşarlıq var. Baxmayaraq ki, aramızdakı məsafə kifayət qədər uzundur, bizi birləşdirən nəqliyyat infrastruktur layihələri haqqında da bu gün danışdıq. Biz həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizləri vasitəsilə qarşılıqlı ticarəti stimullaşdıra bilərik. Bir sözlə, əminəm ki, səfərin çox gözəl nəticələri olacaq. Bizim hörmətli qonağımız ilk dəfədir ki, Azərbaycanda səfərdədir. Səfər vaxt baxımından qısa olsa da, məzmun nöqteyi-nəzərindən kifayət qədər zəngindir. Bu gün bizim işimiz davam etdiriləcək. Sabah da hörmətli Baş katibin səfəri davam edəcək. Əminəm ki, öz vətəninə Azərbaycandan ən xoş təəssüratlarla qayıdacaq".

Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın bəyanatında bildirdi ki, hazırkı səfərim diplomatik münasibətlər qurulduqdan sonra Vyetnam Kommunist Partiyasının Baş katibinin Azərbaycana ilk səfəridir. Bu, Azərbaycanla bütün sahələrdə əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsində Vyetnamın qətiyyətli olduğunu nümayiş etdirir. Bütün bunlar, öz növbəsində, ölkələrimiz arasında ənənəvi dostluğa və əməkdaşlıq potensialına cavab verir. Biz etimad, dostluq və səmimiyyət şəraitində cənab Prezidentlə uğurlu danışıqlar apardıq və yaxın zamanlarda iki ölkə arasında əlaqələrin strateji istiqamətlər üzrə inkişaf etdirilməsi barədə razılığa gəldik.

Şadıq ki, ölkələrimizin münasibətləri Prezident Ho Şi Minin Azərbaycana 1959-cu ildə səfəri ilə başladı. Onun səfərindən sonra müxtəlif təmaslar və səfərlər olmuşdur. Ölkələrimiz arasında əlaqələr dövlət rəhbərləri və xalqlarımız tərəfindən daim gücləndirilmişdir. Biz siyasi, diplomatik, energetika, müdafiə, ticarət və digər sahələrdə yaxşı nəticələr əldə etmişik. Bu əsasla biz strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatı artıq qəbul etdik. Bu isə ölkələrimizin münasibətlərinin tarixində yeni dövr, yeni səhifə açır. Əminəm ki, bir yaxın zamanlarda ikitərəfli münasibətlərimizi dərinləşdirə və genişləndirə biləcəyik, inkişaf naminə üstün cəhətlərimizdən faydalanacağıq".

Vyetnam Kommunist Partiyasının Baş katibi bildirdi ki, biz, həmçinin sülhsevər yanaşmanı dəstəklədiyimizi qeyd etdik: " Biz mübahisələrin dinc yolla həllini, beynəlxalq hüquqa, o cümlədən BMT-nin 1982-ci il tarixli Dəniz Hüququ Konvensiyasına uyğun olaraq, gücdən istifadə etməmək və onun istifadəsi ilə hədələməmək kimi prinsiplərin vacibliyini bildirdik. Əminəm ki, iki ölkə rəhbərlərinin qətiyyəti ilə ikitərəfli münasibətlərimiz bundan sonra da xalqlarımızın rifahı, eləcə də regionda və dünyada sülh, sabitlik və əməkdaşlıq naminə inkişaf edəcək".

Göründüyü kimi Azərbaycanla Vyetnam arasında hər iki dövlətin və xalqın maraqlarını ifadə edən siyasət həyata keçirilir. Təbii ki, bu siyasət bundan sonra daha da inkişaf etdiriləcək və dinamik xarakter alcaq. Qazanan isə hər iki dövlət və xalqı olacaq.

# "Ana və Uşaq Sağlamlığı: Mövcud Problemlərə Müasir Baxış" mövzusunda Beynəlxalq Elmi Konfrans keçirilib

***8 may 2025-ci il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin və Mərkəzi Gömrük Hospitalının birgə təşkilatçılığı ilə, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin, Azərbaycan Respublikası Masallı Rayon İcra Hakimiyyətinin, Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyasının və "Ascent" şirkətinin dəstəyi ilə Masallı rayonunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Ana və Uşaq Sağlamlığı: Mövcud Problemlərə Müasir Baxış" mövzusunda Beynəlxalq Elmi Konfrans keçirilib.***








İlk öncə konfrans iştirakçıları və rəsmi qonaqlar Masallı rayonunda Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, dahi şəxsiyyətin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini böyük hörmət və ehtiramla yad ediblər. Sonra nümayəndə heyəti Heydər Əliyev Mərkəzini ziyarət edərək, Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən zəngin sərgilərlə və ekspozisiyalar ilə yaxından tanış olublar.

"Ana və Uşaq Sağlamlığı: Mövcud Problemlərə Müasir Baxış" mövzusunda Beynəlxalq Elmi Konfrans Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə öz işinə başlayıb. Tədbir iştirakçıları Azərbaycan dövlətçiliyinin memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarından keçmiş qəhrəman vətən övladlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbirdə açılış nitqi ilə çıxış edən Masallı rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov tədbir iştirakçılarını salamlayaraq konfransın işinə uğurlar arzulayıb.

Konfransın rəsmi açılış hissəsində çıxış edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi, Əməkdar həkim, t.ü.f.d. Ceyhun Məmmədov Azərbaycan dövlətinin memarı və qurucusu, dahi şəxsiyyət Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın müstəqilliyi və inkişafı naminə həyata keçirdiyi misilsiz xidmətlərindən, ölkəmizin ictimai həyatının bütün sahələrində olduğu kimi səhiyyə sahəsində, ana və uşaq sağlamlığının qorunması istiqamətində həyata keçirilmiş islahatlardan danışıb. Ceyhun Məmmədov qeyd edib ki, Azərbaycanda ana və uşaq sağlamlığının qorunmasına xidmət edən dövlət siyasətinin əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir və bu istiqamətdə daim genişmiqyaslı işlər görülür. Belə ki, son illərdə həyata keçirilmiş məqsədyönlü tədbirlər sayəsində Azərbaycanda mama-ginekologiya, ana və uşaqların sağlamlığının təmin edilməsi sahəsində tibbi xidmətlərin keyfiyyəti xeyli yüksəldilmiş, mama-ginekologiya, pediatriya və neonatologiya üzrə kadr potensialı əhəmiyyətli dərəcədə gücləndirilmişdir. Çıxışının sonunda Ceyhun Məmmədov Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin təşkilatçılığı ilə tibbin müxtəlif aktual mövzularda keçirilən konfrans, konqres və elmi tədbirlər barədə ətraflı məlumat verib, konfransın işinə uğurlar arzu edərək hər kəsi sessiyalarda fəal iştirak etməyə, fikir və təkliflərini bölüşməyə təşviq edib.

Konfransın rəsmi açılış hissəsində, eyni zamanda Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, ürək-damar cərrahı, t.e.d., Əməkdar həkim Rəşad Mahmudov və TƏBİB-in icraçı direktorunun müavini Araz Nəsirov çıxış ediblər. Məruzəçilər çıxışlarında Ümummilli Lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərdə səhiyyə sahəsinə göstərdiyi xüsusi diqqət və qayğı, ana və uşaq sağlamlığının müdafiəsi və inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi misilsiz xidmətlərindən söz açıblar.



Həmçinin, Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin təşkilatçılığı ilə keçirilən bu konfransın mama-ginekologiya, ana və uşaq sağlamlığı sahəsində müasir elmi yanaşmaların paylaşılması, beynəlxalq təcrübənin öyrənilməsi və milli səhiyyə sistemində tətbiqi istiqamətində əhəmiyyətli bir platforma olduğu vurğulanıb.

Konfransın rəsmi açılış hissəsindən sonra elmi hissə Azərbaycan, Türkiyə və İngiltərənin aparıcı tibb müəssisələrində çalışan yüksəkixtisaslı mütəxəssislər çıxış ediblər. Konfransın "Mamalıq Patalogiyaları" , "Ginekologiyada müasir müalicələr" və "Ginekologiyada müasir müalicələr" mövzularında olan panellərində Böyük Britaniyanın Birmingem Qadın və Uşaq Hospitalının mama-ginekoloqu, t.ü.f.d. Fidan İsrafil-Bəyli, Türkiyənin Avropa Asiya Mama-Ginekologiya Dərnəyinin rəhbəri, qadın xəstəlikləri və doğum uzmanı Məlahət Atasevər, Mərkəzi Gömrük Hospitalının Mama-ginekologiya şöbəsinin rəisi, t.ü.f.d. Təranə Bayramova, Laboratoriya şöbəsinin rəisi, b.ü.f.d. Səbinə İbrahimova, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun Mamalıq-ginekologiya kafedrasının müdiri, t.e.d., Prof. Dr. Leyla Rzaquliyeva, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, ürək-damar cərrahı Rəşad Mahmudov, Türkiyənin Ankara Yıldırım Beyazıt Universitetinin Uşaq sağlamlığı və xəstəlikləri bölməsinin professoru Prof. Dr. Nihal Demirel və Mərkəzi Gömrük Hospitalının pediatr-neonatoloq-reanimatoloqu Təranə Göyüşova təqdimatlarla çıxış ediblər.

Qeyd edək ki, konfransda yerli həkimlərlə beynəlxalq ekspertlər arasında təcrübə mübadiləsinin təmin edilməsi üçün panel müzakirələri və sual-cavab sessiyaları təşkil olunub. Konfransın hər bir iştirakçısına 7 DTT balı və sertifikat təqdim edilib.

## Müharibə əlilləri və şəhid ailələrinin mənzillə təminatı müddəti uzadılıb



Müharibə əlilləri və şəhid ailələrinin mənzillə təminatı müddəti uzadılıb. SİA xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamında dəyişiklik edib.

Dəyişikliyə əsasən, yuxarıda qeyd olunan şəxslər (ailələr) 2030-cu ilə qədər (bundan əvvəl 2021-2025-ci illər) mərhələli şəkildə mənzil və ya fərdi evlə təmin ediləcəklər.

*Təbiət o qədər müdrikcəsinə yaradılıb ki, onda hər dərdin dərmanı, hər bəlanın açarı var. Zəhərli ilanı udan kirpinin bir göz qırpımında zəhər əleyhinə otu tapıb yeməsini, yaralanmış balasını yalayaraq ağız suyu ilə sağaldan yırtıcını, dağ çiçəyi ilə ana südünü qarışdırıb qılınc yarasını sağaldan ananı rəvayətlərdə elə-belə anlatmayıblar. Bu rəvayətlərin hamısında bir həyat gerçəkliyi var. Yaşlıların, qoca qarıların hər dərdə dava hesab etdikləri min bir çeşid otla alternativ təbabət "sağalmaz!" deyilən çox xəstəni sağaldıb.*

Alternativ tibbin üstünlüklərini bəzən elə məqamlarda görürük ki, müasir tibb elminin sağalda bilmədiyi bir çox xəstəliyi sağaldan təbibləri sehirbaz kimi qəbul edirik. Halbuki, min illər boyu insanlar yalnız türkəçarə ilə müalicə olunublar. Amma o zamanlar Allahın yaratdığı adi otu, gülü, çiçəyi biznes maraqlarına alət edənlər yox idi. Dövrümüzdə bu, ən asan gəlir mənbəyinə çevrilib.

# Təbii təbabət: çiçəklərdə yatan sirlər



## Ehtiyatlı olun, şəfanın donu dəyişib



Son illərin ən çox gəlir gətirən sahələrindən olan təbii bitkilərdən hazırlandığı iddia edilən dərman bazarı istehsalçı firmalara milyonlar qazandırır. İçində nə olduğunu bilmədiyimiz bu "şəfalı" dərmanlar bizə sağlamlıq əvəzinə əlavə bir neçə xəstəlik də qazandıra bilər.

Başınız ağrıyanda dərman içmək istəməməyiniz normaldır, orqanizminizi təhlükəli kimyəvi maddələrlə zəhərləmək istəmirsiniz, amma televizorda, qəzet və radiolarda "tamamilə bitki tərkibli" deyə reklam edilən hər məhsula da güvənməyin. Bu gün baş ağrısı üçün qəbul etdiyiniz o "təbii" dərman sabah ürək ritminizi poza, böyrək və qaraciyər yetməzliyi yarada bilər.

Bəzən insanlar təzyiqini salmaq üçün, sidiyə gedə bilmək üçün otlar alır, dəmləyib içirlər. Bilmək lazımdır ki, hər otun xüsusi dəmləmə qaydası, istifadə göstərişləri var. Xüsusilə böyrəyində daş olanlar üçün bu cür otlar diqqətlə təyin edilməlidir, əks halda böyrək yetməzliyi yaranar ki, insan ömrünü dializ aparatlarına bağlı keçirər.



## "İnsanlar öz sağlamlıqlarına düşməndir"

Təbib Vaqif Əliyev deyir ki, kor-koranə istifadə edilən təbii otlar da insana zərər verə bilər: "Hər gün reklam edirlər, arıqlamaq üçün, şəkəri salmaq üçün, təzyiqi normallaşdırmaq üçün nə qədər dərman təqdim edirlər. İddia edirlər ki tərkibi tamamilə otlardan ibarətdir. Bizim xalqda da belə bir fikir formalaşıb ki, əgər otlardandırsa deməli zərərli deyil, həkimsiz-reseptsiz alıb istifadə edirlər. Nə zəmanət talonu tələb edirlər, nə uyğunluq sertifikatı, nə istehsal icazəsi. Sanki özləri xəstələnmək üçün pulla dərd alırlar".

Təbib deyir ki, adi otlar insan orqanizminə elə zərər verə bilər ki, nəticəsi çox təhlükəli olar: "Şəkər xəstələrinin həyatı onlar üçün oyuncaqdır, çünki adı, mənşəyi, növü bilinməyən otları bir-birinə qatıb çay düzəldirlər, reklam edirlər ki, şəkərli diabetə xeyirdir, müalicə edir, birdəfəlik yox edir. Şəkərli diabetdən əziyyət çəkənlər də inanıb alır. Axı bilməlidirlər ki, şəkər tamamilə yox olmur, bunu edə bilən dərman, ot yoxdur, sadəcə nəzarətdə saxlamaq olur. Təbii müalicə üçün təbiblər var, otların dilini, xüsusiyyətini bilənlər var, biz bu elmin kökünü öyrənirik, fırıldaqçılıq edərək insanların həyatı ilə oynayanlar kimi müraciət edənlərə hər nə gəldi vermirik".



## Həm dərman ola bilər, həm dərd gətirər

Bitki tərkibli adı ilə aldığınız qarışığın içində kimyəvi maddə də ola bilər, çünki istehsalçı təklif etdiyi "təbii" dərmanın daha çox effektiv olmasında maraqlıdır. Təbib Nisə Qarayeva deyir ki, şəkər və təzyiq üçün təklif edilən bu dərmanlar daha təhlükəlidir: "Hər iki xəstəlikdə qəfil yüksəlmə qorxuludur, odur ki tərkibini bilmədiyiniz qarışıqları alıb içmək doğru deyil. Əgər təyiqiniz yüksəkdirsə evdə dəmləyib içdiyiniz adi yarpız təzyiqinizi normallaşdıra bilər, böyrəyinizdə daş varsa adi solmazçiçəyi bu daşı əridə bilər. Amma efirdə gördüyünüz, içində nə olduğunu bilmədiyiniz qarışıq otları alıb içməyin".



Müsahibimiz deyir ki, elə bitkilər var ki, onlara qarşı xüsusi ilə diqqətli olmaq lazımdır: "Məsələn, rast gəlmişəm, telekanallarda, radiolarda "Paraqvay çayı" adı ilə idmançılara məsləhət görülən bir bitki var, təbii enerji mənbəyidir, fiziki güc verir. Düzdür, güc verir, amma tərkibində kafein olduğu deyilmir. Nəzarətsiz istifadəsi ürək xəstəliklərinə, təzyiq yüksəlməsinə belə səbəb ola bilər. Sonra rozmarin dediyimiz bitki var, indi daha çox bibəriyə kimi tanınır, sidikqovucudur, amma anemiyası olan, qan təzyiqi aşağı olan, şəkərli diabet xəstəliyi olanlar üçün nəzarətsiz istifadəsi ölümcül ola bilər".

Son illərin ən çox içilən çay növlərindən biri olan yaşıl çay da sağlamlıq üçün təhlükə yarada bilər. Təbib deyir ki, antioksidant xüsusiyyəti qan-damar xəstəliyi üçün dərmandır, amma arıqlamaq üçün ondan çox içənlər var ki, bu ifrat istifadə təqyiqi oynada bilər, ürək döyünməsi və səbəbsiz narahatlıq yarada bilər: "Adi kəklikotunu çoxumuz sevirik, həm gözəl aroması var, həm də inanılmaz faydaları. Soyuqdəymədən qoruyur, beyində qan dövranını yaxşılaşdırır, başağrısını kəsir, yuxusuzluğa xeyirdir, amma ifrat istifadə edilərsə mədə divarlarını yandıra bilər, təzyiqi sala bilər. Acı bibər min bir dərdə dərmandır, amma çox istifadəsi mədə-bağırsaq problemləri yaradır".

## Arıqlama çayları təhlükə mənbəyidir

Gördüyünüz kimi, təbii təbabət əslində müalicə edir, amma kor-koranə istifadə edilən təbii vasitələr xəstəlik də yarada bilər. Arıqlamaq üçün sizə təklif edilən hər dərmanı alıb içməyin, hər otu dəmləyib qəbul etməyin, bu sizin orqanizminizin maddələr mübadiləsini poza bilər. Unutmayın ki, hər təsirli otun, çiçəyin xeyirli tərəfləri ilə bərabər əks təsirləri də ola bilər.

Yeməyi sevirik, amma çəkimizin artmasından da qorxuruq. Bunun üçün çox insan arıqladan çaylar içir. Xüsusilə də iştah azaldan adı ilə sizə təklif edilən "təbii" vasitələri məlumatınız olmadan qəbul etməyin, çünki bir çoxu asılılıq yaradan maddə ilə zəngindir. Bu məhsulları qəbul edəndə düşünmürük ki, arıqlamaq yerinə həyatımızı kabusa çevirə bilərik. Bir çox "təbii" arıqlama çayı analiz edildikdə içində iştahı azaldan kimyəvi maddələr olduğu məlum olur.

Üstəlik, bu maddələr o çayın qablaşdırıldığı qutunun üzərinə də yazılmır və siz alarkən qutunun içində yalnız arıqladan təbii ot olduğunu düşünürsünüz. Xüsusilə də ürək, böyrək, şəkərli diabet, təzyiq kimi xəstəlikləri olanların arıqlamaq planları başlarına bəla ola bilər. Düzdür, arıqlamaq normal istəkdir, piylənmə statistiasına nəzər salsaq arıqlamağın vacib olduğunu anlamış olarıq, amma bu arıqlamaq həyatınızı itirməyə səbəb ola bilər. Etibar etdiyiniz təbibdən məsləhət alaraq nəzarət altında artıq çəkidən qurtulmağınız sağlamlığınız üçün ən doğru yoldur.

*Lalə Mehralı*

*Rusiya xarici işlər nazirinin keçmiş müavini (1990-1991) Andrey Fyodorov ”Moskva-Baku” portalına müsahibəsində Ermənistanın baş nazirinin Moskvadakı Qələbə paradına səfəri öncəsi İrəvanın verdiyi bir-birini təkzib edən bəyanatları şərh edib.*

# Rusiya XİN sabiq müavini: “Paşinyan X saatını gözləyir”






***- Andrey Vladimiroviç, Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvadakı Qələbə paradına səfərindən əvvəl İrəvandan kifayət qədər "ziddiyyətli" bəyanatlar eşidildi. Ermənistan parlamentinin spikeri bəyan edib ki, əslində, Ermənistan liderinin parada gedib-getməməsi Avropa İttifaqının səlahiyyətində deyil (Aİ-nin Avropa İttifaqı ilə müəyyən dərəcədə sıx əlaqələri olan ölkələrin rəhbərlərinə səsləndirdiyi xəbərdarlıqlar əsasında). Eyni zamanda o, bəyan edib ki, Rusiya guya Ermənistan hakimiyyətinə qarşı hibrid müharibə aparır. Eyni zamanda, Ermənistanın baş naziri Paşinyan özü bəyan etdi ki, İrəvan Avropa İttifaqı ilə münasibətləri Ermənistan-Rusiya münasibətlərinin zərərinə inkişaf etdirmək məqsədi daşımayıb... Bu bəyanatlar bir-birini istisna etmirmi?***









- Xeyr, mən deməzdim ki, bunlar ”uyğun olmayan” bəyanatlardır, bunlar sadəcə olaraq İrəvanın öz siyasətini həyata keçirməsinin və məqsədlərinə çatmasının fərqli izləridir. Nikol Paşinyan üçün Qələbə günündən sonra Moskvaya səfəri onun Rusiya ilə münasibətlərini hələ də saxladığını və Moskva ilə dialoq apardığını göstərmək üçün prinsipial əhəmiyyət kəsb edirdi. Eyni zamanda, o, Moskvada da nümayiş etdirmək istəyirdi (məndə olan məlumata görə, o, bu barədə Rusiya paytaxtında bəzi adamlara danışıb) Ermənistanın Aİ-yə doğru getməsi heç də onun yox, xalqın, parlamentin istəyidir. Deyir ki, baxın, mən Moskvadakı parada gəlmişəm, amma xalqın iradəsi artıq məndən asılı deyil. Baxmayaraq ki, Paşinyanın qərbyönlü vektoru hər kəsə aydındır. Belə bir hiyləgər siyasi gediş.

Ermənistanın baş naziri Moskvaya qarşı hər hansı mənfi münasibət nümayiş etdirmək istəmir, çünki İrəvan üçün Rusiya ilə iqtisadi əməkdaşlıqdan, AİỈ üzvlüyündən çox mühüm dividendləri saxlamaq vacibdir. Və eyni zamanda, o, sakitcə Ermənistanı Avropa İttifaqı ilə münasibətləri institusionallaşdırmağa yaxınlaşdırır. Yaxın aylarda Ermənistan hakimiyyəti öz qanunvericiliyini Aİ qanunvericiliyinə uyğunlaşdırmağa başlaya bilər. Paşinyan 2026-cı ildə keçiriləcək yeni parlament seçkilərində mütləq qalib gələcək və konstitusiya referendumu keçirəcək. Buraya Ermənistan xalqının Avropaya inteqrasiya tərəfdarı olub-olmaması məsələsi də daxil ediləcək. Bu məqamın dəstəklənməsi ehtimalı yüksəkdir. Və sonra Paşinyan Rusiyadan uzaqlaşmaq üçün bütün sonrakı hərəkətlərini və konkret addımlarını məhz xalqın iradəsi ilə bağlayacaq. Deyəcək: ”Görürsən, camaat bunu istəyirdi, mən burada xalqın iradəsini yerinə yetirməyə bilmərəm”.

***- Paşinyanın eyni vaxtda iki kresloda əyləşməsi- Rusiya ilə münasibətlər və Qərblə münasibətlər- Qərbin Ermənistana adekvat dəstək verməməsi mənasına gəlirmi?***

- Tamamilə yox, bəlkə də qismən. Paşinyan ”X” anından əvvəl Rusiya ilə şiddətli problem yaşamaq istəmir. X məqamının gəlişi ilə- seçkilərin onlar tərəfindən udulduğu, əhalinin Aİ-yə inteqrasiya üçün referendumda səs verdiyi zaman- böyük ehtimalla, artıq onlar tərəfindən konkret addımlar atılacaq və bəyanatlar veriləcək ki, Ermənistan birmənalı olaraq ”Avropa ailəsi”nə inteqrasiya yoluna çıxmaq üçün ”tarixi qərar” verib.

Hələlik onun bu və ya digər istiqamətə- Aİ və ya Rusiyaya meyl etməsi sərfəli deyil. O, eyni vaxtda iki stulda oturur və kifayət qədər sabitdir. İndi Paşinyan yaxşı gedir- o, bir qədər kənardadır: nə biz ona çox təzyiq göstəririk, nə də Qərb. Və Paşinyan özü bu məsələni irəli sürmür ki, biz Rusiyanın yanında deyilik. İstər Moskvanın Paşinyana münasibətində, istərsə də Paşinyanın Moskvaya münasibətində bu, iki tərəfli qılıncdır və onu aşmamaq vacibdir. Avropa İttifaqı tərəfindən isə Ermənistanın öz tərəfinə keçməsi prosesini sürətləndirmək arzusu yoxdur. Orada bütöv bir məntiq qurulub və bu məntiqə Fransa nəzarət edir. İndi Ermənistanı ”qoşmaq” vaxtı deyil; indi Ukrayna diqqət mərkəzindədir.

***- Qərbdə yəqin ki, Paşinyana sərt şəkildə parada getməməyi "tövsiyyə ediblər"?***

- Yox, onun səfəri ilə bağlı tamamilə sakit idilər. Qadağa məsələsi və onun üçün səfərin nəticələri belə ortaya çıxmadı; onunla heç bir problem yox idi, çünki Qərb bilir ki, o, onların xətti ilə gedəcək. Problemlər və tövsiyələr Fitso və Vuçiç ilə bağlı idi.

Və Aİ başa düşür ki, Paşinyanın parada səfəri tarixi aspektlərlə izah olunur və eyni zamanda, Avropa İttifaqı ilə dialoqa mənfi təsir göstərməyəcək. Nəzərə alın ki, Ermənistanın baş nazirinin Moskvaya səfərindən sonra Avropadan heç bir mənfi şərh gəlməyib.

***- Bəs yenə də Paşinyanın seçkilərdə qalib gələcəyi və əhali Ermənistanın Avropa İttifaqına inteqrasiyasına səs verələcəyi təqdirdə onun Aİ ilə yaxınlaşma istiqamətində atacağı konkret hansı addımlardan danışmaq olar?***

- İşləri tələsdirməyək, hələ qarşıda çox şey var. Bu, həm də Ukrayna ətrafında vəziyyətin necə inkişaf edəcəyindən asılı olacaq. Bir çox parametrlərdən başlamalı olacağıq. Aydındır ki, Paşinyan Qərbə yaxınlaşmaq üçün konkret addımlar atmalı olacaq. Çünki bu hərəkat son nəticədə daha qlobal addımlar tələb edir.

***Tərcümə - Elçin Bayramlı***

# "Yemək sadəcə bioloji bir ehtiyac deyil"

*PSİXOLOQ İZAH ETDİ*

"Yemək sadəcə bioloji bir ehtiyac deyil, eyni zamanda emosional bir əlaqə vasitəsidir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq, psixoterapevt Orxan Şəfizadə deyib. O bildirib ki, xüsusilə, uşaqlarda yemək davranışı ailə mühiti, emosional vəziyyət və psixoloji amillərlə sıx bağlıdır: "Bu səbəbdən yemə pozuntularını yalnız fiziki aspektdən deyil, psixoloji müstəvidə də dəyərləndirmək vacibdir.







## Yemə pozuntusunun psixoloji kökü

Uşaqlarda ən çox rast gəlinən yemə pozuntuları arasında iştahsızlıq, seçici yemək, həddindən artıq yemək və gizli yemək davranışları var. Bu halların arxasında isə bir çox hallarda aşağıdakı psixoloji faktorlar durur:

Valideyn təzyiqi və məcburiyyət: "Boşqabı bitirməlisən" kimi məcburi yanaşmalar uşaqlarda yeməyə qarşı mənfi münasibət formalaşdıra bilər.

Sevgi ilə şərtləndirilmiş qidalanma: Valideynin "Əgər yeməsən, səni sevmərəm" kimi şərtləndirmələri uşağın emosional ehtiyaclarını yeməklə əlaqələndirməsinə səbəb ola bilər.

Ailədaxili gərginlik və stress: Ailə daxilində yaşanan münaqişələr, boşanma və ya diqqət çatışmazlığı uşağın yemək davranışına təsir edə bilər.

Özünü ifadə etmə üsulu: Bəzi uşaqlar yeməkdən imtina etməklə nəzarət hissini ələ almağa və ya duyğularını ifadə etməyə çalışırlar.

## Psixopedoqoji yanaşma və həll yolları

**1. Əvvəlcə dinləyin, sonra yönləndirin:** Uşağın yemək mövzusunda nə hiss etdiyini və nə istədiyini başa düşmək üçün onunla empatik şəkildə danışın.

**2. Məcbur etməyin, seçim verin:** Məcburi qidalandırma uşağın yeməyə qarşı müqavimətini gücləndirir. Bunun əvəzinə sadə suallarla seçim imkanı yaradın: "Bu gün tərəvəzli şorba yoxsa toyuq şorbası istəyirsən?"

**3. Yemək saatlarını pozitiv hala gətirin:** Süfrə başı ailəvi söhbət və birlik zamanı olmalıdır. Yalnız qidalanma deyil, əlaqə qurmaq üçün bir fürsət kimi dəyərləndirilməlidir.

**4. Uşağın öz bədənini dinləməsinə kömək edin:** Onu ac olduqda yeməyə, toxluq hiss etdikdə isə dayanmağa təşviq edin. Bu, öz bədəni ilə əlaqə qurmasına kömək edər.

**5. Hisslərini ifadə etməsinə şərait yaradın:** Rəsm, oyun və ya nağıl terapiyası kimi üsullarla uşağın duyğularını ifadə etməsinə imkan verin.

**6. Peşəkar dəstək vacibdir:** Əgər yemə pozuntusu davamlı və ciddi hal alıbsa, psixoloq və ya psixopedoq tərəfindən qiymətləndirilməlidir.

## Nəticə

Uşaqlarda yemə pozuntusu bəzən bir "səssiz çağırış" - diqqətə, anlayışa və sevgiyə olan ehtiyacın göstəricisidir. Bu davranışı cəzalandırmaq və ya məcburiyyətlə dəyişdirmək əvəzinə, onun arxasında duran duyğuları başa düşməyə çalışmaq, həm uşağın psixoloji rifahı, həm də sağlam inkişafı üçün vacib addımdır".

***Söylü Ağazadə***



# Əsir düşərgəsi

**Lalə Mehralı**

**İnsanlar sosiallaşma ehtiyaclarını və real həyatdakı ünsiyyətlərini rəqəmsal platformalara köçürdükdən sonra dostluq, qohumluq əlaqələri də dəyişdi. Real həyatdakı münasibətlərimiz bir-bir sosial platformalara keçdi. Başqa sözlə desək, sosiallaşmaq da zamana ayaq uyduraraq rəqəmsallaşdı.**

İndi bütün dünya üzrə desək 4,62 milyard sosial şəbəkə istifadəçisi var, aktiv internet istifadəçisinin sayı isə 5 milyarda yaxınlaşıb. İstifadəçilərin sayı artdıqca insanların sosial şəbəkələrdə keçirdikləri vaxt da artır. İnsanlar orta hesabla gündə təxminən 2,5 saatını sosial platformalarda keçirirlər. Lakin bu, orta hesabla təyin edilmiş rəqəmdir, əksəriyyətimiz bu rəqəmin əslində doğru olmadığını öz asılılıq vərdişlərimiz sayəsində bilirik.

Sosial şəbəkələrdən istifadənin sürətlə artması bir növ təhrikedicidir. Hamı ora can atır. Hər gün yenisi istifadəyə verilən şəbəkələr texnoloji imkanları, üstünlükləri ilə bizi özünə əsir edir. Düşünün, üzv olduğunuz hər hansı bir sosial şəbəkənin ilk imkanları ilə indiki imkanları eynidir? Məsələn, Feysbuka üzv olduğunuz ilk vaxtları xatırlayın. Mənim yadımdadır, 10 il əvvələdək çox sadə imkanları olan bir şəbəkə idi, indiki qədər cəlbedici və asılılıq yaradan deyildi. Bizi o şəbəkələrdən asılı vəziyyətə gətirənədək dayanmadan dəyişiklik edildi, yenilik edildi və sonunda bunu bacardılar. İndi hamımız onun və digər şəbəkələrin əsiriyik.

Məşhur misal var, dəyişməyən tək şey dəyişikliyin özüdür. Dəyişmək həmişə yaxşı istiqamətdə baş vermir. Yeniliklər həyatımızda yaratdığı rahatlıqla bərabər həm də öyrəşdiyimiz alışqanlıqlarımızı da əlimizdən alır. Getdikcə qəzet, kitab qoxusunu unuduruq, televiziya kanallarında proqram izləmirik, radionu açıb sevimli proqramımızı həvəslə dinləməyə hazırlaşmırıq, hansısa kinonun, verilişin efir vaxtını gözləmirik. Əlimizdə Yutub kimi nəhəng platformaya rahat giriş varsa, bunlara ehtiyac görmürük.

Beləcə, həyatımız asanlaşdıqca qəlizləşir. Bizə rahatlıq yaratdığını düşündüyümüz hər yenilik həyatımızdan bir zərrə qoparır. Əvəzində bizi özünün əngin dərinliklərinə həbs edən əsir düşərgələrinin - sosial şəbəkələrin sayı artır.

**FELYETON**



# "Biz"siz bizlər...

Biz əvvəllər belə deyildik, görəsən nə oldu bizə? Bəlkə əvvəllər bizi bizləyənlər çox idi. Elə ki, onlar rəhmətə getdi, biz də artıq bizsiz davam etdik. Və gəlib bu günlərə çatdıq. Biz nə edirik? Biz yolu işıqforda qırmızı, yaşıl, hansı yandı, dəxli yoxdur keçirik. Lakin əvvəllər dayanıb gözləyirdik ki, yaşıl işıq yansın.

Biz görürük ki, birazdan yaşıl işıq yanacaq, buna məhəl belə qoymuruq, maşını sürüb ağ zolağın-piyada keçid xəttinin üzərində saxlayırıq. İnsanlar maşınların arası ilə ilan kimi qıvrıla-qıvrıla keçməli olur.

Biz nə edirik? Səhər yuxudan beş-on dəqiqə tez qalxmaq əvəzinə, yatıb qalırıq, sonra da işə tələsdiyimiz üçün küçədə qaçır, yanımızdan ötənlərə necə bir təkan vururuqsa, az qalır kəlləsi asfaltın üstündə parça-parça olsun.

Sonra gəlirik metroya, eskalatorda necə qaçırıqsa, az qalır bu yazıq pilləkən relsindən çıxıb darmadağın olsun.

Bizim əvvəlki biz olmadığımızın sübutu bilirsiniz nədir? Biz sağ və sol tərəfimizi tanımırıq artıq. Baxmayaraq ki, metroda mikrofondan dayanıb-durmadan elan olunur ki, sağda dayanın, sol tərəfi keçid üçün boş saxlayın, lakin nə fayda. Bu sözləri gün ərzində min dəfə söyləyən o yazıq qızı heç bir dəfə də dinləyən yoxdur.

Əşi, bu sağ-sol məsələsi dəhşətdir ey... Metroda qatardan düşənlər elə bilir ki, platforma ta onlarındır. Elə yayılırlar bu dar çığıra ki, yanlarından bir iynə də o tərəfə keçə bilməz. Deyirəm ay sağ- sol məsələsi, görəsən sənə əməl edən olacaqmı?

Biz vallah-billah, biz deyilik artıq. Ay qardaş, ay bacı, biz bir-birimizdən Allahın salamını kəsmişik ey... Girirsən liftə, salam verirsən, camaat almır. Ya düşünürlər ki, əşi heç hənanın yeridir, ya da ölməz şair demişkən, axı salam nə yeməli, nə də içməlidir, niyə alsınlar, hələ bir ağızlarını ağrıdıb, cavab versinlər...

Əvvəllər insanların bir-birinə hörmətsayğısı var idi. Yuxarı mərtəbələrdə yaşayanlar aşağıdakıları düşünürdü. Səsküy salmamağa çalışırdı. İndi artıq belə deyil. Aşağıdakı insanları düşünmək nədir, kim nə bilir üstdə edir. Canı çıxsın qonşunun, dözür, dözsün, dözmür, köçsün.

Bir az sakit olsan, vallah adam var ki, çıxıb başında əyləşər. Məsələn, gedirsən süd almağa. Görsə ki, bir az yumşaq adamsan, nə utanacaq, nə də çəkinəcək. Gəlib keçib qarşında dayanacaq. Sanki səhərdən bəri gəlib ona burada növbə saxlamalı imişsən.

Vallah, gəl, bunları gör, yaşa görüm, əsəbləşmədən, sakit necə yaşaya bilirsən. Allah sənə rəhmət eləsin, Molla Nəsrəddin. Haradadır o iynən, bizin, gəl, onları da gətir, görünür, bəziləri onlarsız ötüşmür. İynəni, bizini işə sal ki, bizlər yenə əvvəlki bizlər ola biləк.

***Mətanət Məmmədova***

# “PKK”nın mövcudluğuna son qoyuldu

## Türkiyə bir daha böyük gücə və qüdrətə malik dövlət olduğunu dünyaya nümayiş etdirdi




Tarixi reallıq ondan ibarətdir ki, dünyada sülhə və təhlükəsizliyə, insanların dinc yaşamasına ən böyük əngəl beynəlxalq terrorizmdir. Beynəlxalq terrorçuluq və mütəşəkkil cinayətkarlıq bəşəriyyətin sakit, rəvan, insanların sülh şəraitində yaşamasına ciddi problemlər yaradır. Təbii ki, terrorizm təsadüfən, həm də fərdlərin, eləcə də qrupların istəyi ilə yaradılmır. Beynəlxalq terrorizmin arxasında böyük güclər dayanır. Hansı ki, onlar öz güc və qüdrətlərini başqalarına diktə etmək üçün terrorizmdən istifadə edirlər. Hətta beynəlxalq terrorizmin arxasında dayanan dövlətlər terrora və terrorun maliyyələşməsinə milyardlarla dollar maliyyə vəsaitləri xərcləyirlər. Dünyada mövcud olmuş və hələ də bəzilərinin fəaliyyət göstərdikləri terror təşkilatları arasında ən amansızları "ASALA", "PKK", "Daşnakstyun", İrland "İRA-sı, bask ETA-sı və "Əl Qaida"dir. Görünən ondan ibarətdir ki, tərəqqipərvər dövlətlərin, sülhsevər xalqların dəstəyi, bəzən isə ölkələrin sərt antiterror əməliyyatları ilə terror təşkilatların bir qismini sıradan çıxarmaq mümkün olur. 44 günlük Vətən Müharibəsi dövründə Azərbaycan işğal olunmuş ərazilərində fəaliyyət göstərmiş "ASALA" və "Daşnakstyun" terror təşkilatlarını tamamilə məhv etdi. İndi isə növbə "PKK"nındır. Daha doğrusu, artıq Türkiyə Silahlı Qüvvələrinin keçirdiyi sərrast əməliyyatlar nəticəsində sonuncu terrorçuya qədər məhv ediləcəklərini anlayan "PKK" terror təşkilatı ağ bayraq qaldıraraq təslim olmağa məcbur olub. "PKK" 1978-ci ildə Türkiyəni zəiflətmək, hətta bölünməsinə nail olmaq məqsədi ilə Sovet İttifaqının xüsusi xidmət orqanları tərəfindən yaradılsa da, sonradan onun idarə edilməsini və maliyyələşməsini Qərbin və ABŞ-ın bir sıra dairələri həyata keçirib. 1984-cü ildə qurulduğu gündən bu yana on minlərlə insanın həyatını itirməsinə səbəb olan "PKK" hər kəsi, o cümlədən əsgər, polis, qadın, uşaq ayrı-seçkiliyi etmədən öldürür.

### Baş terrorçunun ölüm cəzası sonradan ömürlük həbs cəzası ilə əvəzləndi

"PKK" terror təşkilatı qəsb, silah və narkotik ticarəti kimi fəaliyyətlərlə də məşğuldur. "PKK"-nın uşaqların qaçırılması və zorla orduya cəlb edilməsi ilə bağlı da uzun müddətdir ki, cinayət keçmişi var. "PKK" terror təşkilatı Türkiyənin turizm sənayesini, iqtisadi infrastrukturu, təhsil müəssisələrini, səhiyyə ocaqlarını, dövlət və özəl müəssisələr hədəfə alır. Bu kontekstdə təşkilat infrastrukturlara, obyektlərə, məktəblərə və təcili yardım maşınlarına hücum, səhiyyə işçilərini və gömrük işçilərini qaçırmaq kimi bir çox üsuldan istifadə edir. "PKK" bu üsullarla yanaşı, pusqu və sui-qəsdlər təşkil edir, təşkilatla əməkdaşlıq etməyən mülki şəxsləri edam edir, adam oğurluğu həyata keçirir, şəhər mərkəzlərində kamikadzelərdən istifadə edərək terror aktlarını davam etdirir. Terror təşkilat 1998-ci ilə qədər Suriyada sığınacaq tapıb. Daha sonra təşkilatın lideri Abdullah Öcalan Suriyadan qaçıb, Keniyada gizləndi. Lakin o, 1999-cu il fevralında Milli Kəşfiyyat Təşkilatının əməliyyatı nəticəsində Keniyada saxlanılaraq Türkiyəyə gətirilərək istintaqa təhvil verildi. Baş terrorçu məhkəmənin qərarı ilə ölüm cəzasına məhkum edilsə də, hökm sonradan ömürlük həbs cəzası ilə əvəzlənib.

2003-cü il Körfəz Müharibəsindən sonra Şimali İraqda yaranan hakimiyyət boşluğundan istifadə edən "PKK" terror təşkilatı Qəndil dağı ətrafında müxtəlif terror düşərgələri qurub, burada silahlılarına təlim keçib və Türkiyənin şəhər və kəndlərinə, qəsəbələrinə hücumlar təşkil edib. 14 oktyabr 2009-cu ildə ABŞ Maliyyə Nazirliyinin Xarici Aktivlərə Nəzarət Ofisi təşkilatın yüksək səviyyəli rəhbərləri Murat Karayılan, Əli Rıza Altun və Zübeyir Aydarı əhəmiyyətli xarici narkotik tacirləri olmasına dair qətnamə qəbul edib. 20 aprel 2011-ci ildə terror təşkilatının qurucuları Cəmil Bayık və Duran Kalkanı, bəzi digər yüksək rütbəli üzvləri ilə birlikdə Xarici Narkotik Dəstələrinin Təyinatı Qanunu çərçivəsində Xüsusi Təyin olunmuş Narkotik Tacirləri elan olunublar. Hazırkı fars-molla rejiminin ərazilərində, Ermənistanda, Suriya və İraqda "PKK"-nın dayaq dəstələri fəaliyyət göstərirlər. İmralı adasında ömürlük həbs cəzasını çəkən Abdullah Öcalanın rəhbərlik etdiyi "KCK" "PKK" ilə eyni təşkilatdır. "KCK" fars-molla rejimin ərazilərində "PJAK", İraqda "Tavqari Azadi", Suriyada "PYD"/"YPG" adlanır. "PYD"/"YPG"-nin "PKK" ilə əlaqəsi aydındır. "PYD"/"YPG" 2003-cü ildə "PKK" terror təşkilatının nəzarətində yaradılıb və hər iki terror təşkilatı eyni rəhbərlik heyətini, təşkilati quruluşunu, strategiyasını, taktikasını, hərbi quruluşunu, təbliğat vasitələrini, maliyyə imkanlarını və təlim düşərgələrini bölüşür.

### Terrorçular silahı yerə qoyub təslim oldular

Türkiyə "PKK" terrorçu təşkilatına qarşı əhəmiyyətli əməliyyatlar aparıb. Bu əməliyyatlar nəticəsində çoxsaylı terrorçu, o cümlədən də onların rəhbərləri öldürülüblər. 2019-cu ildə Türkiyə təhlükəsizlik qüvvələri bir çox "PKK" yaraqlısını ölkədən sıxışdırıb çıxarmağa nail olmuşdur. Bundan sonra döyüşlər əsasən terrorçuların yerləşdikləri İraqın şimalında yerləşən Kürdüstan bölgəsini və Suriyanın şimalını əhatə etmişdir. 2024-cü ilin oktyabr ayında Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının (MHP) lideri Dövlət Baxçalı partiyasının qrup toplantısında "PKK" terror təşkilatının lideri Abdullah Öcalanın parlamentə gələrək burada qruplaşmanın buraxılmasını elan etməsini təklif etmişdir. Abdullah Öcalan terrorla nəticə əldə edə bilməyəcəklərini anlayaraq D.Baxçalının təklifini dəstəklədiyini bəyan etdi. Danışıqlardan sonra İstanbulda təşkil olunan mətbuat konfransında Öcalanın müraciətini DEM Partiyasının rəhbərliyində təmsil olunan Ahmet Türk kürdcə, Pervin Buldan isə türk dilində oxuyub. Öcalanın adından yayılan yazılı müraciətdə "silahı buraxın" çağırışı yer alıb: "Bütün qruplar tərksilah olunmalı və PKK ləğv olunmalıdır. Mən silahı yerə qoymağa çağırıram və bu çağırışa görə tarixi məsuliyyəti öz üzərimə götürürəm". Nəhayət, 40 ildən sonra "PKK" silahı yerə qoyduğunu bəyan etdi. "PKK" mayın 9-da verdiyi açıqlamada İmralı F Tipi Yüksək Mühafizəli Qapalı Həbsxanada saxlanılan Abdullah Öcalanın fevralın 27-də etdiyi "Sülh və Demokratik Cəmiyyətə Çağırış"la bağlı 12-ci Qurultayını keçirdiyini açıqlayıb. "PKK"-nın açıqlamasında 12-ci Qurultayın 5-7 may tarixləri arasında keçirildiyi, qurultayın nəticələri və alınan qərarlarla bağlı geniş və təfərrüatlı məlumat və sənədlərin tezliklə ictimaiyyətlə paylaşılacağı bildirilib."PKK"-nın yekun bəyannaməsində "Abdullah Öcalanın 27 fevral bəyanatı ilə başlayan proses, 5-7 may tarixləri arasında toplanan 12-ci Partiya Qurultayının həyata keçirdiyi çoxşaxəli işlər və fərqli üslublarda təqdim etdiyi perespektivlər işığında uğurla tamamlandı" ifadəsi yer alıb. Bəyannamədə, "Toqquşmaların davam etdiyi, havadan və qurudan hücumların davam etdiyi, həmçinin bölgələrimizdəki mühasirə və KDP embarqosunun davam etdiyi çətin şərtlərə baxmayaraq, qurultayın təhlükəsiz şəkildə keçirildi bildirilir. Təhlükəsizlik baxımından qurultay iki fərqli sahədə eyni vaxtda keçirildi. Ümumilikdə 232 nümayəndənin iştirakı ilə keçirilən PKK-nın 12-ci Konqresi müvafiq qərar qəbul etdi. Bəyannamədə, "PKK-nın Fövqəladə 12-ci Konqresi kürd problemini demokratik siyasət yolu ilə həll etmək həddinə çatdığı və "PKK"-nın bu yöndə tarixi missiyasını artıq başa vurduğu bildirilir. Bu əsasda "PKK"-nın 12-ci Konqresi PKK-nın silahlı təşkilatlanma metodu adı altında aparılan mübarizəni ləğv etməyə qərar verdi və bununla da "PKK" silahlı mübarizəni sonlandırdı", - deyə bəyan edilir.

### Türkiyə hər bir pozucu, terrorçu şəbəkəni əzib keçməyə hazırdır

"PKK" terror təşkilatının silahı yerə qoyması və təslim olması Türkiyənin gücünün və qüdrətinin göstəricisidir. Bununla sübuta yetirildi ki, Türkiyə ilə heç bir halda zor müstəvisində, hətta terror əməlləri ilə danışmaq mümkün deyil. İstənilən halda Türkiyə hər bir pozucu, terrorçu şəbəkəni əzib keçməyə hazırdır və bunu əməli fəaliyyəti ilə sübuta yetirib. Türkiyənin xarici işlər naziri Hakan Fidan PKK terror təşkilatının ləğvi və tərksilah edilməsi qərarı ilə bağlı açıqlamasında bildirib ki, bu qərar verildikdən sonra atılacaq əməli addımlar var. Onları yaxından izləyəcəyik. Nazir Hakan Fidan " PKK"-nın fəaliyyətini dayandırmaq və tərksilah etmək qərarının tarixi və əhəmiyyətli bir qərar olduğunu bildirib: "Bu qərarı xüsusilə bölgəmizdə hökm sürən daimi sülh və sabitlik baxımından çox əhəmiyyətli görürəm. Bu qərarın qəbulundan sonra atılacaq əməli addımlar var. Onları yaxından izləyəcəyik.Ən böyük arzumuz Türkiyədə son 20 ildə inkişaf etdirdiyimiz demokratiya, azadlıq, rifah və təhlükəsizlik sahələrinin daha da genişlənməsi və Türkiyədən sıçrayaraq bölgəmizdəki digər dövlətlərə və xalqlara müsbət təsir göstərməsidir. İnanıram ki, bu qərar səmimi və digər narahatlıqları aradan qaldıracaq şəkildə həyata keçirilərsə, gələcəyimiz üçün, vətəndaşlarımız üçün, hər kəs üçün çox faydalı bir qərar olar".

Hakan Fidan bu barədə MHP sədri Dövlət Baxçalının çıxışını da xatırladıb: "Hörmətli Baxçalı bu mövzuda tarixi bir çağırış etdi. Prezidentimizin çox güclü iradəsi var. Hazırda qurumun bu məsələyə də müsbət reaksiyası var. Təbii ki, bu tarixi məsuliyyətdə biz bu ölkənin övladları olaraq öz müdrikliyimizlə, öz sağlam düşüncəmizlə, öz ağlımızla, öz iradəmizlə öz problemlərimizi həll edə biləcəyimizi göstəririk. Düşünürəm ki, bu, millət, bölgəmiz və mənsub olduğumuz sivilizasiya üçün son dərəcə vacib bir addımdır. Praktikada görüləsi işlər çoxdur, təfərrüatlı məsələlər çoxdur."

### Prezident İlham Əliyev "PKK" terror qruplaşmasının özünü ləğv etməsi ilə əlaqədar Türkiyə xalqını təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "PKK" terror qruplaşmasının özünü ləğv etməsi ilə əlaqədar Türkiyə xalqını təbrik edib. Azərbaycan Prezidenti İlham Əliyev X sosial şəbəkə hesabında bununla bağlı etdiyi paylaşımda bildirib: "Başda əziz Qardaşım, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla bütün qardaş Türkiyə xalqını PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı münasibətilə ürəkdən təbrik edirəm. Əziz Qardaşımın bəyan etdiyi "Terrorsuz Türkiyə" hədəfinə çatmaqda vacib mərhələ olan bu hadisə dövlətçilik yolunda ölkədə aparılan qətiyyətli siyasətin nəticəsi, güclü liderliyin və sarsılmaz iradənin, milli birliyin və həmrəyliyin təntənəsidir. Alınmış qərarın tam icrası istiqamətində Türkiyə dövlətinə və xalqına uğurlar arzulayıram".

Azərbaycan Xarici İşlər Nazirliyi "PKK" terror təşkilatının özünü ləğv etməsi barədə bəyanat yayıb. Bu barədə XİN-nin "X" hesabında paylaşım edilib. "Davamlı sülh və sabitlik yolunda mühüm addım olan PKK-nın ləğvi ilə bağlı elanı alqışlayırıq. Bölgədə terror təhlükəsinə son qoymaq üçün ən qısa zamanda praktiki addımların atılmasını gözləyirik. Qardaş Türkiyə rəhbərliyini terrorizmin kökünün kəsilməsi, təhlükəsizliyin gücləndirilməsi və sabitliyin təşviqi istiqamətindəki sarsılmaz öhdəliyinə görə alqışlayırıq", - paylaşımda deyilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul edərkən də "PKK"nı özünü buraxmasına xüsusi önəm verilib. Prezident İlham Əliyev "PKK" terror qruplaşmasının özünü ləğv etməsi ilə bağlı təbriklərini çatdıraraq, bununla əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etdiyini vurğulayıb. "PKK" terror qruplaşmasının özünü ləğv etməsini tarixi hadisə adlandıran və bizi də sevindirdiyini deyən Azərbaycan Prezidenti bu məsələdə Türkiyə Prezidentinin siyasi iradəsinin ən başlıca rol oynadığını qeyd etdi. Bununla yanaşı, dövlətimizin başçısı vurğuladı ki, Türkiyə dövlətinin gücü, qardaş ölkənin silahlı qüvvələrinin terrorçulara peşəkarcasına mübarizə aparması, Türkiyə cəmiyyətindəki birlik də terror qruplaşmasının bu addımı atmasında əsas amillərdəndir. Dövlətimizin başçısı dedi ki, bu, yalnız Türkiyə üçün deyil, ümumilikdə, bölgədəki xalqların sülh və əmin-amanlıq şəraitində yaşaması üçün önəmli məsələdir.

Bir sözlə, Türkiyə hərbi, siyasi, diplomatik gücü ilə terrorçuları təslim olmağa məcbur etdi. Söz yox ki, dünyanın ən amansız terror təşkilatı olan "PKK"nın zərərsizləşdirilməsi təkcə Türkiyəyə sakitlik, sabitlik gətirməyəcək, həm də yaxın Şərqdə sülhün və təhlükəsizliyin təmin olunmasına imkanlar yaradacaq. Buna görə, Türkiyə dövlətinə, onun rəhbərliyinə və xalqına təşəkkürlər.

***İLHAM ƏLİYEV***

# "Zəhmətə səcdə edən adam - Elşən dayının ömür çəkisi"

***Hər məhəllənin özünəməxsus bir siması, kölgəsi düşən bir ağacı, səsini eşidəndə içi isidəni olur. Bizim məhəllənin kölgəli adamı isə Elşən dayı idi- sınıq-salxaq "Qaz-24"ünün arxasında, tozlu, nimdaş, lakin təmiz və halal əlləri ilə ruzisini qazanan bir zəhmət adamı.***



Hər şənbə-bazar gün çıxmamış yola düşərdi. Yolunun biri Hacıqabula, biri "Meyvəli" bazarına apardı. Maşının yük yerində süd, qatıq, pendir, yumurta, meyvə-tərəvəz- daşdan yumşaq nə vardısa, tapıb gətirərdi. O maşın bəlkə də çoxdan "xılamlığa" göndərilməliydi, amma Elşən dayı üçün o, bir təkərli dost, bir "çörək ağacı" idi.

Onu mənə tanıdan dəyərli ziyalımız, mərhum Ənvər Çingizoğlu oldu. Ənvər müəllim Elşən dayının daimi müştərisi idi. Onların arasında sadə alış-verişdən daha dərin, dürüstlük və qarşılıqlı ehtiramla hörülmüş bir bağ vardı- biri qələmlə, biri zəhmətlə yaşayırdı, amma hər ikisi halallıqla nəfəs alırdı.

Ənvər müəllim qəfil haqq dünyasına qovuşandan sonra Elşən dayının da həyatının tarazlığı pozuldu. Alış-veriş etdiyi məkan dəyişdi, köhnə məhəllədən də köçməyə məcbur oldu. Deyilənə görə, bəzilərinə onun sınıq maşını, qabarmış əlləri, nimdaş geyimi yaraşmırmış. Guya məhəllənin "görünüşünə" xələl gətirirmiş...

Amma o, sakitcə getdi. Arxasında bir kədər, bir də dua qoydu. Hər dəfə köhnə məhəlləyə yolu düşəndə başını aşağı salıb işini görər, Ənvər müəllimin adı çəkiləndə gözlərini uzaqlara dikib, dərin köks ötürərək: "Allah ona rəhmət eləsin,"- deyərdi. Ənvər müəllim getdi, Elşən dayı arxasız qaldı. Bəzən bir yaxın adam dünyadan köçəndə, sanki bir dirək yıxılır. Elşən dayı üçün də o dirək Ənvər müəllim idi.

Elşən dayı tərəziyə heç vaxt xəyanət etməzdi. Nə qiymətdə aldatdı, nə də çəkidə. Əksinə, çox vaxt bir ovuc da artıq qoyardı. Bilirdi ki, bir ticarətçinin imtahanı tərəzidən başlayır. O bu imtahandan üzüağ çıxmışdı. Dünya malına tamah salmadı, övladlarını halal zəhmətlə böyütdü, evləndirdi, nəvə sahibi oldu- amma bir dəfə də olsun haramı evinə buraxmadı.

Yay aylarında tez-tez azyaşlı oğlunu sonbeşiyini Zeynalı da özü ilə gətirərdi. Balaca Zeynal da atası kimi zəhmətə alışmışdı. Qonşuların aldığı meyvə-tərəvəzi kiçik əlləri ilə evlərə daşıyar, işin içində böyüyərdi. Bu, sadəcə əmək yox, ailədən gələn halallığın, zəhmətə hörmətin nümunəsi idi.

Bu sətirləri yazarkən yadıma Mirzə Cəlilin "Dəllək" hekayəsi düşür. Orada Usta Hüseyn deyirdi:



"Müsəlmançılığın şərtləri çox ağırdır. Az adam var ki, onların hamısına əməl edə bilsin." Elşən dayı da həmin az adamlardan idi. Kasıb idi, amma halalı bol idi. Geyimi köhnəydi, amma sifəti aydın. Tərəzisi köhnəydi, amma haqqı düz çəkirdi.

İndi Elşən dayı bu dünyanın yükünü yerə qoyub, o biri aləmdə-əbədi istirahətindədir. Dua edirəm ki, bu dünyada qazandığı zəhmətkeşlik, halallıq və insanlıq o dünyada da onun əlindən tutsun. Bu dünyada ayaqda durmağı bacardı, amma ürəyi bu zəhmətin ağırlığına dözmədi.

İndi hər ikisi- həm Ənvər müəllim, həm də Elşən dayı- bəlkə də bir yerdədirlər. Dünya tərəzisinin o biri gözündə, daha dürüst, daha ədalətli bir aləmdə. Əvvəllər bazarlıq etdikləri kimi, indi də səssiz-sədasız bir kölgədə oturub baxırlar bura. Ənvər müəllim- yaşadığı məhəlləyə, Elşən dayı isə halal zəhmətlə çörək qazandığı küçəyə.

Bəlkə də hər səhər onların baxışları düşür üzərimizə- görək, tərəzini düz çəkirikmi, haqqı tapdalamadan yaşaya bilirikmi?

Elşən dayının çiynində daşıdığı zəhmət, Ənvər müəllimin qələmində daşıdığı söz- hər ikisi bu torpağın alnıaçıq adamları idi. Tərəzinin gözünü pozmayan, amma məhəllənin və zamanın gözündən düşən o az adamlardan biri olaraq yaddaşlarda qalacaqsan, Elşən dayı...

Və hər ikiniz bizə bir dua, bir ibrət, bir hekayə qoyub getdiniz.

Ruhlarınız şad, məkanlarınız nurla dolsun.

***Savalan Talıblı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

*EKSPERT RƏYLƏRİ*

# Harada siqaret çəkmək olmaz?

Haralarda siqaret çəkmək olmaz? İctimai qaydaları pozanlara qarşı cərimələr tətbiq olunmalıdır? Cərimələnmə nə zaman və hansı formada həyata keçirilməlidir? SİA mövzu ilə əlaqədar deputat Naqif Həmzəyevin və vəkil Turan Abdullazadənin fikirlərini öyrənib. Deputat Naqif Həmzəyev: "Azərbaycanda aşağıdakı yerlərdə siqaret çəkmək





qanunla qadağandır:

- Təhsil və səhiyyə müəssisələrində;
- İctimai nəqliyyatda;
- Restoran, kafe və digər ictimai iaşə obyektlərinin qapalı yerlərində;
- İdman və mədəniyyət obyektlərində;
- Dövlət idarələrində;
- Lift və çoxmərtəbəli binaların pilləkənlərində;
- Uşaq meydançalarında və uşaqların olduğu yerlərdə;
- Benzin doldurma məntəqələrində və digər yanğın təhlükəsi olan yerlərdə.

İctimai yerlərdə siqaret çəkmə qaydalarını pozanlara cərimələr tətbiq olunur. Bu cərimələrin haqlı olub-olmaması barədə müxtəlif fikirlər var:

Cərimələrin haqlı olduğunu düşünənlər qeyd edirlər ki:

- Siqaret çəkməyən insanların təmiz hava almaq hüququ var;
- Passiv siqaret dumanı sağlamlığa ciddi zərər verir;
- Cərimələr insanları qaydaları gözləməyə təşviq edir;
- İctimai sağlamlığın qorunması dövlətin vəzifəsidir.

Qadağan olunmuş yerlərdə siqaret çəkmək üçün alternativ məkanlar kifayət qədər yaradılmayıb".

Vəkil Turan Abdullazadə: "İctimai yerlərdə, xüsusilə insanların sıx toplaşdığı ərazilər, avtobus dayanacaqlarında siqaret çəkən şəxslərin bu hərəkəti digər vətəndaşların haqlı narazılığına səbəb olur. Buna görə də həmin şəxslər barəsində inzibati məsuliyyət tədbirləri görülür. Bəzən isə məsuliyyətə cəlb olunan şəxslər etdikləri qanun pozuntusu ilə razılaşmırlar. Azərbaycan Respublikasının "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanununa əsasən, tütün məmulatlarından istifadənin məhdudlaşdırılması və tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirinin azaldılması məqsədilə aşağıda göstərilən yerlərdə siqaret çəkmək qadağandır:

- Təhsil və tərbiyə müəssisələri və onların əraziləri;
- Tibb və tibbi-reabilitasiya müəssisələri və onların əraziləri;
- İdman yarışları və digər kütləvi tədbirlərin keçirildiyi binalar və obyektlər;
- Restoranlar, kafelər, barlar daxil olmaqla ictimai-iaşə obyektləri;
- Ticarət obyektləri;
- Məişət obyektləri;
- Sosial xidmət müəssisələri;
- Yerləşdirmə vasitələri;
- Mədəniyyət obyektləri (teatr, kinoteatr, muzeylər və s.)
- Uşaq meydançaları;
- Yerüstü və yeraltı piyada keçidləri;
- Nəqliyyat vasitələri (avtobuslar, minik avtomobilləri, dəmir yolu, hava nəqliyyatı və s.)
- Yanacaqdoldurma məntəqələri və digər təhlükəli obyektlər;
- Çoxmənzilli yaşayış binalarının ümumi istifadədə olan yerləri.

İnzibati Xətalar Məcəlləsinin 212.4-cü maddəsinə əsasən, tütün məmulatları tullantılarının ətraf mühitə atılmasına görə üç yüz manat məbləğində cərimə edilir. Bu əməl bir il ərzində təkrar törədilərsə, yeddi yüz manat məbləğində cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, altmış saatdan yüz saatadək ictimai işlər tətbiq olunur.

"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş yerlərdə (tütün çəkmək üçün təşkil edilmiş xüsusi yerlər istisna olmaqla) tütün çəkilməsinin qarşısının alınmamasına görə vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər min iki yüz manat məbləğində cərimə edilir. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş digər yerlərdə tütün çəkməyə görə otuz manat məbləğində cərimə edilir.

Bundan başqa, hava nəqliyyatında tütün çəkməyə görə yüz manat, dəmir yolu nəqliyyatında və dəniz və çay nəqliyyatında müəyyən edilməmiş yerlərdə tütün çəkməyə görə qırx manat məbləğində cərimə nəzərdə tutulub.

Avtobusda, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitəsində və taksi minik avtomobilində tütün çəkilməsinə görə qırx manatdan əlli manatadək məbləğdə cərimə edilir. Metroda tütün çəkməyə görə əlli manat məbləğində cərimə edilir. Bundan əlavə, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, bu yerlərdə tütün çəkmək qadağan edildiyini göstərən lövhələrin olması da qanunla tələb edilir".

***Söylü Ağazadə***

SON SƏHİFƏ
SƏS
14 may
2025-ci il

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# XƏBƏRDARLIQ:

## Əmək bazarında bu peşələr 5 ildən sonra sıradan çıxa bilər!

### *Ekspert detalları açıqladı*



”Əmək bazarında texnologiyanın, avtomatlaşdırmanın və süni intellektin sürətli inkişafı nəticəsində bəzi peşələr və bacarıqlar yaxın 5 ildə ya tamamilə sıradan çıxa bilər, ya da ciddi şəkildə transformasiyaya məruz qalacaq. Bu dəyişikliklərə səbəb yalnız texnoloji tərəqqi deyil, eyni zamanda iqtisadi optimallaşdırma, sosial ehtiyacların dəyişməsi və insan resurslarının daha səmərəli istifadəsi ilə bağlıdır. Aşağıda sıradan çıxma riski yüksək olan sahələri və bu dəyişimin səbəblərini təhlil edək”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Kamran Əsədov sözlərinə belə davam edib: ”Birinci növbədə təkrar olunan, standartlaşdırılmış və aşağı səviyyəli rutin işlər yüksək risk altındadır. Məsələn, kassir və satış məntəqəsi operatorları artıq bir çox ölkədə avtomatlaşdırılmış ödəniş sistemləri ilə əvəzlənir. McKinsey Global Institute-un 2023-cü il hesabatına görə, bu sahədə avtomatlaşdırma potensialı 97%-ə qədərdir. Azərbaycanda da özünəxidmət aparatlarının və onlayn ticarətin artması bu tendensiyanı yaxın illərdə daha da aktuallaşdıracaq.

Əmək müqavilələri və sənəd dövriyyəsi ilə məşğul olan ənənəvi katib və ofis menecerləri artıq avtomatlaşdırılmış sənəd idarəetmə sistemləri və generativ süni intellekt (məsələn, ChatGPT, Copilot və s.) vasitəsilə əvəz olunmağa başlayıb. Bu sistemlər e-poçt yazmaq, hesabat hazırlamaq, görüşləri planlaşdırmaq və hətta ilkin hüquqi sənədləri formalaşdırmaq qabiliyyətinə malikdir. Bu sahədə çalışanlar üçün yeni bacarıqlar - məsələn, proqram təminatı ilə işləmə və proseslərin idarə edilməsi - tələb olunacaq. Ənənəvi sürücülük peşələri, xüsusilə taksi və yükdaşıma sahəsində çalışanlar da transformasiya riski altındadır. ABŞ və Çin başda olmaqla bir çox ölkədə sürücüsüz avtomobillər artıq real sınaqdan keçir və bu texnologiyanın kommersiyalaşdırılması prosesindədir. Azərbaycan hələ bu mərhələdən uzaqdır, amma süni intellektlə işləyən marşrut optimallaşdırma sistemləri və logistika texnologiyaları bu sahədə çalışanların sayını əhəmiyyətli dərəcədə azalda bilər.









Klassik bank xidməti işçiləri, xüsusilə müştəri xidmətində çalışan kassirlər, mühasiblər və məlumat verənlər də risk altındadır. Rəqəmsal bankçılığın artması, mobil ödənişlərin yayılması və chatbot xidmətlərinin inkişafı artıq bir çox bankda işçi ehtiyacını azaldıb. Əgər bu gün müştəri ilə əlaqə insan üzərində qurulursa, 5 il sonra bu işlərin əksəriyyəti süni intellekt sistemləri ilə əvəz olunacaq. Mətbuat və informasiya yayımı sahəsində texniki redaktor və qəzet distribütoru kimi vəzifələr də yox olmaq üzrədir. Ənənəvi çap mediası sürətlə sıradan çıxır və onun yerini onlayn platformalar tutur. Süni intellekt artıq mətnlər, başlıqlar, hətta xəbərlər də yaza bilir. Jurnalist peşəsi tam yox olmasa da, onun texniki yardımçı elementləri - korrektə, sadə xəbər kompilyasiyası və arxiv işi - avtomatlaşacaq.

Ənənəvi tərcümə xidmətləri, xüsusilə sadə və ümumi sənədlərin tərcüməsi, artıq Google Translate, DeepL kimi alqoritmlər tərəfindən yüksək dəqiqliklə yerinə yetirilir. Müəyyən dillərdə kontekstual tərcümə artıq insan səviyyəsinə yaxınlaşdırılıb. Yalnız hüquqi, ədəbi və ya texniki mətnlərin tərcüməsi hələ insan tərcüməçiyə ehtiyac duyur, lakin bu sahədə də süni intellekt köməkçi vasitə kimi dominant mövqeyə yüksəlir.

Bu dəyişikliklərin fonunda əmək bazarında iki vacib tendensiya formalaşır: birincisi, texnoloji vasitələrlə işləmə bacarığı olmayan peşələr sıradan çıxır; ikincisi, ”sadə əməyin” tələbi azalır, amma kreativlik, analitik düşüncə, emosional intellekt, idarəetmə, proqramlaşdırma, məlumat analitikası kimi bacarıqlar daha çox tələb olunur. Ona görə də bu sahələrdə çalışan insanlar üçün ən rasional yanaşma - bacarıqların yenilənməsi, yeni sahələrdə ixtisaslaşma və dəyişən reallığa adaptasiya olunmaqdır. Azərbaycanda bu dəyişiklikləri qabaqlamaq üçün təhsildə STEM, rəqəmsal savadlılıq və peşə bacarıqlarına yönəlmiş reformalar əsas prioritetlərdən biri olmalıdır. Çünki sıradan çıxacaq peşələrin arxasınca getmək deyil, gələcəkdə yaranacaq ehtiyaclara hazır olmaq strateji üstünlük verəcək”.

***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000